QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 239 (5959) **25 dekabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: "DOST mərkəzlərinin yaradılması bizim sosial siyasətimizin mahiyyətini göstərir"

*Azərbaycan Prezidenti İlham Əliyev 2 saylı DOST mərkəzinin açılışında iştirak edib*




Səh 2

8

**Əli Əhmədov: "İlham Əliyev artıq dünya miqyasında tanınan və hörmət edilən lider kimi qəbul olunur"**



10

**Mərkəzi Seçki Komissiyası bələdiyyə seçkilərinin ilkin nəticələrini açıqlayıb**



10

**AVCİYA: Bələdiyyə seçkiləri qanunvericiliyə, demokratik normalara uyğun, şəffaf keçirilib**



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

25 dekabr 2019-cu il

# İlham Əliyev: “DOST mərkəzlərinin yaradılması bizim sosial siyasətimizin mahiyyətini göstərir”

*Azərbaycan Prezidenti İlham Əliyev 2 saylı DOST mərkəzinin açılışında iştirak edib*

***Dekabrın 24-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Xəzər rayonunda yerləşən 2 saylı DOST mərkəzinin açılışı olub.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib. Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. Prezident İlham Əliyev binada yaradılan şəraitlə tanış oldu.



Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına mərkəzdə yaradılan şərait barədə məlumat verdi. Bildirildi ki, 2 saylı DOST mərkəzinin binası 2 mərtəbəlidir. Bina müasir üslubda layihələndirilib və mühəndis sistemləri baxımından ən yüksək tələblərə cavab verir. Bu DOST mərkəzi gün ərzində 250-300 vətəndaşı qəbul edə biləcək. Mərkəz Bakının Xəzər və Pirallahı rayonlarının əhalisinə xidmət edəcək. İl ərzində 70 mindən artıq vətəndaşa “bir pəncərə” prinsipi ilə məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində 132 xidmət göstəriləcək. Mərkəzdə 80 nəfər, “Gənc DOST” proqramı üzrə isə 40 könüllü fəaliyyət göstərəcək. Burada “Pensiya və sosial sığorta”, “Sosial müavinətlər və təqaüdlər”, “Əlillik, tibbi ekspertiza və protez-ortopedik təminat”, “Sosial xidmətlər və övladlığa götürmə məsələləri”, “Əmək münasibətləri”, “Məşğulluq xidmətləri”, “Sosial-hüquqi, sosial-pedaqoji, sosial-psixoloji, sosial-məişət xidmətləri”, “Bank və notarius xidmətləri” də var. Beləliklə, bu mərkəz də vətəndaşların nazirlik üzrə bütün xidmətlərdən “bir pəncərə”yə müraciət edib və “bir pəncərə”dən faydalanmasına imkan verir.



Qeyd edək ki, Prezident İlham Əliyevin sosial islahatlar proqramının əsas hədəfi dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsidir. Dövlətimizin başçısının “Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2018-ci il avqustun 9-da imzaladığı Fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan DOST Agentliyinin məqsədi də məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsidir. DOST Agentliyi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın dövlət sosial xidmətlərinin vahid platformadan, “bir pəncərə”dən, tam şəffaf, operativ, vətəndaş rahatlığı, nəzakətlilik prinsipi və sadə prosedurlar əsasında təqdim olunması təşəbbüsünün nəticəsidir.

Hazırda dünya təcrübəsində oxşar layihələr olsa da, DOST mərkəzləri əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə 132 xidmətin “bir pəncərə”dən təqdim edilməsinə imkan verən, əhatə dairəsi geniş olan, innovativ yenilikləri özündə birləşdirən nadir layihədir. DOST layihəsi artıq özünün dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdırıb.

Prezident İlham Əliyev DOST mərkəzinin bir qrup işçisi və “Gənc DOST” könüllüləri ilə görüşdü. Prezident İlham Əliyev:

- Bu gün DOST mərkəzinin ikinci binası istifadəyə verilir. Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm. DOST mərkəzlərinin yaradılması çox gözəl, əlamətdar hadisədir. Bu mərkəzlər sosial təminat sahəsində çox böyük dönüş yaradıbdır, innovasiyaların və müasir xidmətlərin göstərilməsi üçün çox gözəl alət olubdur. Şadam ki, DOST mərkəzlərinin yaradılması artıq geniş vüsət alır və bu, il ərzində açılan ikinci mərkəzdir. Gələn il də Bakıda və rayonlarda bir neçə mərkəzin açılışı nəzərdə tutulur. Beləliklə, gələn il DOST mərkəzlərinin əhatə dairəsi genişlənəcək və əhalimizin yarıdan çox hissəsini əhatə edəcək.

DOST mərkəzlərinin yaradılması bizim sosial siyasətimizin mahiyyətini göstərir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Azərbaycan vətəndaşının sosial təminatı, rifah halı və rahatlığı bizim üçün prioritet məsələdir. Təsadüfi deyil ki, son illərdə bu sahədə çox böyük işlər görülüb. Həm DOST, həm də “ASAN xidmət” mərkəzləri bizim intellektual məhsulumuzdur. İndi “ASAN xidmət” öz intellektual məhsulunu ixrac edir, artıq bir neçə ölkədə bu layihələr icra olunur. Ümid edirəm ki, gələcəkdə DOST xidmətinin də fəaliyyəti başqa ölkələrdə maraq doğuracaq və təcrübə mübadiləsi üçün bizə müraciətlər daxil olacaq.

Digər önəmli məsələ ondan ibarətdir ki, bir binada 130-dan çox xidmət göstərilir. Əminəm ki, buraya müraciət edən və edəcək bütün vətəndaşlar bu xidmətdən razı qalacaqlar. Birinci mərkəzin açılışından sonra DOST mərkəzinə cəmi 6 ay ərzində 60 mindən çox müraciət olmuşdur və vətəndaşların məmnunluq əmsalı çox yüksəkdir. Bu, onu göstərir ki, həm bütün proses çox düzgün təşkil edilib və həm də bu mərkəzlər məhz innovativ əsaslarla fəaliyyət göstərir. Digər tərəfdən, birinci DOST mərkəzində çalışan işçilər və könüllülər vətəndaşlara çox gözəl xidmət göstərirlər. Bu da məni çox sevindirir. Çünki biz ictimai xidmətlər sahəsində yeni davranış qaydaları tətbiq edirik və xidmət mədənidir, çox dəqiqdir. Əminəm ki, DOST mərkəzinə müraciət edən hər bir şəxs buradan razı qayıdır.



Ardı Səh. 3

# İlham Əliyev: "DOST mərkəzlərinin yaradılması bizim sosial siyasətimizin mahiyyətini göstərir"

*Azərbaycan Prezidenti İlham Əliyev 2 saylı DOST mərkəzinin açılışında iştirak edib*

Əvvəli Səh. 2

Şadam ki, burada işləyənlərin mütləq əksəriyyəti, demək olar ki, hamısı gənclərdir. Bu, Azərbaycan gənclərinin fədakarlığını və öz işinə bağlı olduğunu, məsuliyyətlə yanaşdığını göstərir. Eyni zamanda, bu, gənclər üçün də çox gözəl hazırlıq mərhələsidir. Çünki siz gəncsiniz, müstəqil həyata yenicə qədəm qoymağa başlayırsınız və çox gözəl haldır ki, sizin işiniz buradan başlayır. Əminəm ki, burada qazanacağınız təcrübə gələcəkdə sizə kömək edəcək.

Kadr hazırlığı və ölkəmizin gələcək inkişafı baxımından DOST mərkəzlərinin çox böyük faydası var. Yəni, əgər iqtisadi terminlə desək, biz burada multiplikativ səmərə görürük. Bu gün həm vətəndaşlara xidmət, həm sosial təminat sahələrində şəffaflıq, dürüstlük tətbiq olunur və çox ciddi islahatlar aparılır. Mən bu islahatları yüksək qiymətləndirirəm. Müasir xidmət növləri, eyni zamanda, davranış qaydaları, mədəni xidmət formaları, hazırlıq və təcrübə toplanması. Bütün bu amillər burada işləyən hər bir gənc üçün çox önəmlidir. Əminəm ki, siz artıq peşəkar, müasir düşüncəli kadr kimi öz gələcəyinizi quracaqsınız və daha yüksək pilləyə qalxacaqsınız.

İlin sonunda Xəzər rayonunda belə gözəl mərkəzin açılması çox əlamətdar hadisədir. Son dövrlərdə sosial təminat sahəsində böyük işlər görülübdür. Bu il dövlət tərəfindən ən böyük sosial paket tətbiq olunub və bu, 4,2 milyon insanı əhatə edib. Bu, analoqu olmayan sosial təşəbbüsdür ki, həm maaşlar, həm pensiyalar, müavinətlər artırılıb, problemli kreditlərlə bağlı məsələ öz həllini tapıb. Biz bütün bu işləri vətəndaşların rifah halının yaxşılaşması üçün edirik. İqtisadi imkanlarımız artdıqca, bu işləri görməyə başlamışıq və bu işlər gələcəkdə daha geniş vüsət alacaqdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi də çox fəal işləyir, islahatlar aparır, yeni təşəbbüslər irəli sürür. Beləliklə, bu böyük sahə hesab edirəm ki, bundan sonra da çox önəmli aktor kimi özünü göstərəcək. Çünki bizim sosial siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bu gün şəhid ailələri, müharibə əlilləri üçün yeni binanın açılışı nəzərdə tutulur. Bu il 800-dən çox ailə yeni evlərə, mənzillərə köçür. Gələn il bu rəqəm təqribən iki dəfə artıq olacaq. Yəni, bizim iqtisadi inkişafımız imkan verir ki, sosial sahəyə daha böyük vəsait yönəldək. Hazırda 7500 şəhid ailəsi dövlət tərəfindən pulsuz evlər və mənzillərlə təmin olunub və bu proses davam etdiriləcəkdir. Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirəm. Yeni ildə sizə yeni uğurlar arzulayıram. Sağ olun.

Sonda xatirə şəkli çəkdirildi.










## Prezident İlham Əliyev Dünya Etnoidman Konfederasiyasının sədrini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanı qəbul edib. AZƏRTAC xəbər verir ki, Bilal Ərdoğan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından və öz adından dövlətimizin başçısını ad günü münasibətilə təbrik etdi, ona Azərbaycan xalqının rifahı naminə fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzuladı.***

Təbrikə və göstərilən diqqətə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev bu gün Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə telefonla danışdığını məmnunluqla qeyd etdi. Söhbət zamanı Çövkən Milli Atüstü Oyunu üzrə Prezident Kubokunun final mərhələsinin Azərbaycanda yüksək səviyyədə təşkil olunduğu bildirildi, milli idman oyunlarının inkişaf etdirilməsi istiqamətində ölkələrimizin əməkdaşlığının önəmi vurğulandı.



səs
www.sesqazeti.az
facebook Ses Media Holding
25 dekabr 2019-cu il

# "Azərbaycan dövləti sosial təminat sahəsində çox genişmiqyaslı və düzgün siyasət aparır"

*Prezident İlham Əliyev Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə mənzillərin, Qarabağ müharibəsi əlillərinə avtomobillərin təqdim olunması mərasimində iştirak edib*

***Dekabrın 24-də Bakının Nizami rayonunda şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün inşa olunan yaşayış binasında mənzillərin, həmçinin Qarabağ müharibəsi əlillərinə və onlara bərabər tutulan şəxslərə avtomobillərin təqdim olunması mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.***



Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına yaşayış binasında yaradılan şərait barədə məlumat verdi.

Dövlətimiz hər bir Azərbaycan vətəndaşının sosial məsələlərinin həllinə xüsusi diqqətlə yanaşır, bu baxımdan çox mühüm layihələr həyata keçirilir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə bu istiqamətdə icra olunan işlərin nəticəsini sosial cəhətdən xüsusi qayğıya ehtiyacı olanlar da öz həyatlarında hiss edirlər. Şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslərin mənzil-məişət məsələlərinin həlli daim diqqət mərkəzindədir. Bu kateqoriyadan olan insanların həyat şəraitinin yaxşılaşdırılması, onların avtomobillə təmin olunması üçün ardıcıl tədbirlər görülür. 1997-ci ildən 2018-ci ilədək Qarabağ müharibəsi əlillərinə 4597, şəhid ailələrinə 1582, İkinci Dünya müharibəsi, Çernobıl və müharibə əlillərinə bərabər tutulan digər vətəndaşlara isə 475 mənzil və fərdi ev verilib. Qarabağ müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslər 1998-2018-ci illər ərzində 6155 avtomobillə təmin edilib. Bu il isə daha 600 avtomobilin təqdim olunması nəzərdə tutulur. Yeni inşa olunan binada ümumilikdə, bir, iki və üçotaqlı 96 mənzil var ki, onlardan da 62-si Qarabağ müharibəsi əlilinə, 34-ü isə şəhid ailələrinə təqdim olunur. Bu qəbildən olan vətəndaşlara ilin əvvəlindən bəri 700 mənzil və fərdi ev verilib. İlin sonunadək isə 234 mənzil və fərdi evin təqdim olunması planlaşdırılır. Gələn il də bu istiqamətdə layihələr davam edəcək.







Dövlətimizin başçısı mənzil və avtomobillə təmin olunan şəhid ailələri və Qarabağ müharibəsi əlillərinin bir qrupu ilə görüşdü.

Prezident İlham Əliyev:

-Bu gün sizin həyatınızda çox əlamətdar bir gündür. Bu gün şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə yeni mənzillər verilir. Eyni zamanda, minik maşınları da verilir. Bu münasibətlə sizi təbrik etmək istəyirəm. Bu gözəl binada yaşamaq çox rahat olacaq. Bina ilə tanış oldum. Mənzillərin hər biri yaraşıqlı, işıqlı, gözəl və təmirlidir. Belə də olmalıdır. Siz buna layiqsiniz. Mən dəfələrlə demişəm ki, Vətən uğrunda şəhid olmuş insanların xatirəsi bizim üçün həmişə əzizdir. Azərbaycan xalqı şəhidlərimizin xatirəsini həmişə öz qəlbində yaşadır. Müharibədə vuruşmuş və əlil olmuş vətəndaşlar üçün şəraitin yaradılması bizim mənəvi borcumuzdur.

Son illər ərzində şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 7500-dən çox mənzil və fərdi ev, 7 minə yaxın minik avtomaşını verilib. Bu, deyə bilərəm ki, çox nadir hallarda dünya miqyasında baş verir. Hesab edirəm ki, Azərbaycan bu sahədə ən düzgün siyasət aparır. Çünki bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Xüsusilə o vətəndaşlar ki, öz həyatını Vətən uğrunda qurban vermişdir və sağlamlığını itirmişdir. Bundan sonra da bu siyasət davam etdiriləcək. Gələn il ən azı 1500 mənzil və fərdi evin verilməsi nəzərdə tutulur, yəni, bu ildən fərqli olaraq iki dəfə çox. Baxmayaraq ki, bu ilin əvvəlində 800-ə yaxın mənzilin verilməsi nəzərdə tutulurdu. Ancaq əlavə vəsaitin ayrılması nəticəsində bu mənzillərin və evlərin sayı 900-ə çatıbdır, o cümlədən yüzlərlə minik avtomobili də verilib. Belə gözəl binada yaşamaq əlbəttə ki, çox xoş olacaq. Bir daha demək istəyirəm ki, siz buna layiqsiniz.

Azərbaycan dövləti sosial təminat sahəsində çox genişmiqyaslı və düzgün siyasət aparır. İlk növbədə, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və veteranları dövlət tərəfindən qayğı ilə, diqqətlə əhatə olunurlar. Eyni zamanda, işğaldan əziyyət çəkən soydaşlarımız, məcburi köçkünlər üçün bu il 5 min mənzil və fərdi ev təqdim olunub. Beləliklə, bu kateqoriyadan olan vətəndaşlara bu il təqribən 6 minə yaxın ev və mənzil verilib. Bu, o deməkdir ki, biz bir şəhər boyda evlər tikmişik və layiq olan vətəndaşlara təqdim etmişik. Mən ikinci ölkə tanımıram ki, bu sahəyə bu qədər diqqət ayrılsın.

Ardı Səh. 5

# "Azərbaycan dövləti sosial təminat sahəsində çox genişmiqyaslı və düzgün siyasət aparır"

*Prezident İlham Əliyev Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə mənzillərin, Qarabağ müharibəsi əlillərinə avtomobillərin təqdim olunması mərasimində iştirak edib*

Əvvəli Səh. 4

Bu, bir daha göstərir ki, bizim bu sahədəki siyasətimiz həm düzgündür, həm ədalətlidir. Bu siyasət davam etdiriləcək. Çünki hələ də növbədə dayanan vətəndaşlar var. Şəhid ailələri arasında təqribən 2 mindən çox vətəndaş növbədə dayanır. Onların da problemləri yaxın 2-3 ildə həllini tapacaqdır.

İndi bizim iqtisadi imkanlarımız da yaxşılaşır. Düzgün iqtisadi siyasət aparmaqla biz əlavə gəlirlər əldə etdik. Bu gəlirləri, ilk növbədə, sosial problemlərin həllinə yönəltdik. Bu il 4 milyon 200 mindən çox Azərbaycan vətəndaşı - əhalinin təxminən 40 faizdən çoxu böyük sosial paketlə əhatə olunub. Maaşlar, pensiyalar, müavinətlər, tələbə təqaüdləri, problemli kreditlərin həll edilməsi - bütün bunlar böyük vəsait tələb edir. Biz bu işlərə milyardlarla manat vəsait yönəltmişik və çox düzgün addım atmışıq. Çünki bu, lazım idi. Sosial təminat bizim üçün ən başlıca vəzifədir. Buna nail olmaq üçün bizim iqtisadi imkanlarımız olmalıdır. Ona görə iqtisadi inkişaf nə qədər yüksək templərlə artsa, sosial təminat da bir o qədər yaxşılaşacaq, maaşlar, pensiyalar artacaq. Ona görə bu gün ölkəmizdə aparılan islahatlar bu məqsədi güdür. İlk növbədə, sosial sahədə daha böyük nailiyyətlərə nail olmaq üçün biz iqtisadi sahədə düzgün prinsiplər əsasında işimizi qurmalıyıq. Şəffaflıq, dürüstlük, korrupsiya və rüşvətxorluqla mübarizə, iqtisadi islahatlar, struktur islahatları - bütün bunlar ölkəmizə böyük canlanma gətirir.

Builki iqtisadi göstəricilərimiz çox müsbətdir. Əldə edilmiş bütün əlavə gəlirləri biz sosial sahəyə yönəltdik. Bugünkü bu gözəl, 96 mənzildən ibarət binanın açılışı bunun bariz nümunəsidir. Mən bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm, sizə Yeni ildə yeni uğurlar, cansağlığı, xoşbəxtlik arzulayıram.

***

Sonra mənzillərin sənədlərinin təqdim edilməsi mərasimi oldu.

Yeni binada mənzil alan İlham Məhərrəmov dedi: Cənab Prezident, məni xatırlayırsınız?

Prezident İlham Əliyev: Bəli, Avropa Oyunlarında.

İlham Məhərrəmov: Siz orada görüş zamanı mənə dediniz ki, çox gözəl işlər görürsünüz. O söz mənə stimul verdi. Leyla xanım Əliyevanın dəstəyi ilə yaradılan Boccia İdman Federasiyasının baş katibiyəm. Federasiyamızın yarandığı



qısa müddətdə 1 qızıl və 6 gümüş medalımız olub. Olimpiya Komitəsinin rəhbərliyi ilə Beynəlxalq Boccia Federasiyasının görüşündə 2020-ci və 2021-ci illərdə regional çempionatın Azərbaycanda keçirilməsinə nail olduq. Bütün paralimpiyaçılar adından, əlilliyi olan dostlarımız adından ad gününüzü təbrik edir, Sizə uğurlar arzulayıram.

Prezident İlham Əliyev: Sağ ol. Bu şəkil 4 il bundan əvvəl - 2015-ci ildə çəkilib. Ona görə gərək bir şəkil də çəkilsin.

Milli Qəhrəman Sahil Məmmədov dedi: Çox şadam ki, bu gün Sizin ad gününüzdə bizə gözəl ev hədiyyə edirsiniz. Bunu çox şərəflə qəbul edirik. Sizi ad gününüz münasibətilə təbrik edirəm. Sizə cansağlığı, uzun ömür arzu edirəm. Gələcək işlərinizdə müvəffəqiyyətlər diləyirəm.

Zərifə Sultanova: Çox sağ olun, cənab Prezident.

Dilarə Mövludova: Möhtərəm Prezident, mən Sizi təbrik edirəm. Bu gün Sizin ad gününüzdür. Mənim də bu gün ad günümdür. Mənim 81 yaşım tamam olur. Allah ailənizi qorusun.

Prezident İlham Əliyev: Çox sağ olun. Sizə cansağlığı arzu edirəm.

Əvəz Aslanov: Cənab Prezident, Sizi təbrik edirəm. Çox sağ olun ki, bu günü bizimlə bir yerdə qeyd edirsiniz. Minnətdaram.

Daha sonra avtomobillərin sənədlərinin təqdim edilməsi mərasimi oldu.

Yaşar Nəsirov: Cənab Prezident, ad gününüzü təbrik edirik. Bizə göstərdiyiniz qayğıya görə minnətdarlığımızı bildiririk.

İsgəndər Zeynalov: Çox sağ olun cənab Prezident, yüz yaşayasınız.

Yeganə Allahverdiyeva: Mən də Sizi təbrik edirəm, möhtərəm Prezident. Allah Sizi qorusun.

Prezident İlham Əliyev: Çox sağ olun.

Kamal Məmmədov: Minnətdarıq Sizə cənab Prezident.

Vüqar Orucov: Cənab Prezident, Sizi təbrik edirəm. Allah Sizə cansağlığı versin.

Prezident İlham Əliyev: Sizi bir daha ürəkdən təbrik edirəm. Qarşıdan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı gəlir. Bu münasibətlə də sizi təbrik edirəm. Bir daha cansağlığı, uzun ömür arzulayıram.

Mərasim iştirakçıları Prezident İlham Əliyevə bir daha minnətdarlıqlarını bildirdilər. Sonda xatirə şəkli çəkdirildi.

# İlham Əliyev: "Əminik ki, gələn il də uğurlu əməkdaşlıq edəcəyik"

*Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın İqtisadi İnkişaf nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri, Rusiya-Azərbaycan Hökumətlərarası İqtisadi Komissiyasının həmsədri Maksim Oreşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, Maksim Oreşkin Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.***

Azərbaycan Prezidenti İlham Əliyev:

-Diqqətinizə görə çox sağ olun. Sizi yenidən görməyimə şadam. Xoş gəlmisiniz.

Bu gün biz əməkdaşlığımızın bir ilini bir növ rəsmən başa vururuq. Bu il çox səmərəli və məhsuldar olub. Mənim fikrimcə, bu il biz həm əvvəlki illərdə, həm də bu il nəzərdə tutduqlarımızın hamısına nail olmuşuq. Əlbəttə, bu il münasibətlərimizin davamlı inkişafı həm regional siyasətdə, həm də bütövlükdə çox mühüm amildir. Buna görə əminik ki, gələn il də uğurlu əməkdaşlıq edəcəyik, nəzərdə tutduğumuz planlar, başladığımız layihələr həyata keçiriləcək. Eyni qayda ilə sizin əvvəlki səfəriniz çərçivəsində iri əczaçılıq zavodu açıldı, yeni maşınqayırma zavodunun təməli qoyuldu. Əlbəttə, rəmzi haldır ki, əməkdaşlığımızın bu ilini ölkələrimizi əlaqələndirən körpünün açılışı ilə başa vururuq. Mən bunu çox əlamətdar hadisə hesab edirəm. Ona görə ki, həm sovet dövründə, həm də postsovet illərində Rusiya ilə Azərbaycanı yalnız bir körpü bağlayırdı, hərçənd onu əsl körpü adlandırmaq da olmaz, o körpü çoxdan köhnəlmişdi. Buna görə yeni körpü biznes, qarşılıqlı faydalı beynəlxalq əməkdaşlıq, nəqliyyat dəhlizi üçün yeni qapılar deməkdir. Beləliklə, ilin məhz bu cür əlamətdar hadisə ilə başa çatması çox rəmzi məna daşıyır.

Bu il ərzində əlamətdar hadisələr çox olub - Prezident Vladimir Vladimiroviç Putin və Rusiyanın digər rəhbərləri ilə mənim görüşlərim, rəsmi nümayəndə heyətlərinin səfərləri, iqtisadi, humanitar sahədə əməkdaşlıq. Gələn il də çox mühüm tədbirlər nəzərdə tutulur, o cümlədən Sankt-Peterburqda keçiriləcək mədəniyyət forumunda Azərbaycan əsas qonaq kimi təmsil olunacaq. Bu, çox şərəfli missiyadır. Biz Rusiya tərəfinə minnətdarıq ki, belə bir fəxri qonaq qismində məhz bizim ölkəmiz seçilib. Bu tədbirə hazırlıq ən yaxın vaxtlarda başlanacaq.



Sizi bir daha salamlamaq istərdim. Şadam ki, tez-tez görüşürük. Buna səbəb həm praktiki, həm də mərasim xarakterli tədbirlərin çox olmasıdır. Sizi görməyə bir daha şadam və yeni ildə sizə uğurlar, dost Rusiyaya yeni qələbələr arzu edirəm.

***

Rusiyanın İqtisadi İnkişaf naziri Maksim Oreşkin:

-Çox sağ olun, hörmətli İlham Heydər oğlu. Mən və həmkarlarım doğum gününüz münasibətilə Sizi bir daha təbrik edirik. Bu gün çox gözəl gündür. Biz gələndə hava dumanlı idi. İndi isə göy qübbəsi altında mavi səma görünür. Bu, çox yaxşı əlamətdir.

Biz hər dəfə Azərbaycana gəlməyə sevinirik. Həqiqətən indi bizim həyata keçirdiyimiz, məntiqi sonluğa çatdırdığımız layihələrin sayı get-gedə artır. Bu, çox yaxşı haldır. Ona görə ki, hər bir belə layihə ölkələrimizi daha da yaxınlaşdırır, iqtisadiyyatımız daha fəal artır, insanların rifahı yaxşılaşır. Buna görə biz bu məqsədlərə istiqamətlənmişik və bu yöndə işləyirik. Biz hər addımda yeni layihələr düşünüb tapmağa çalışırıq, onlar həqiqətən bizim irələməyimizə kömək edir. Məsələn, indicə həmkarlarımızla maliyyə məsələsi ilə bağlı bir məqamı müzakirə edirdik. Baxarıq, ola bilsin bu istiqamətdə işləyəcəyik. Rusiyada "Mir" adlanan bir ödəmə sistemi var. Bizim türkiyəli həmkarlarımız bu sistemi öz bazalarında tətbiq edirlər. Bu, Türkiyəyə gədən rusiyalı turistlər üçün çox münasibdir. Siz bizim qarşımızda turist mübadiləsini inkişaf etdirmək vəzifəsini qoymusunuz. Biz bu göstəricini milyona çatdırmağa çalışırıq. Həqiqətən, turistlərin ölkələrimiz arasında gediş-gəlişi nə qədər sadə, rahat olsa, turist axını bir o qədər çox olacaq. Biz həmkarlarımızla razılığa gəlmişik ki, bu məsələni araşdıraq, həmin sistemin Azərbaycanda tətbiq edilməsinin nə dərəcədə mümkün olmasını aydınlaşdıraq. Buna görə daha fəal işləməyə hazırıq.

# Prezident İlham Əliyev Bakı Ağ Şəhərdə Mərkəzi Bulvar küçəsinin açılışında iştirak edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 24-də Bakı Ağ Şəhərdə Mərkəzi Bulvar küçəsinin açılışında iştirak edib, əsasən tamamlanmış Park Kvartalı ilə tanış olublar və buradakı parkın abadlaşdırılmasına start veriblər.***



AZƏRTAC xəbər verir ki, son illər ərzində Bakı Ağ Şəhər layihəsi çərçivəsində yaradılan infrastruktur insanların rahatlığı və təhlükəsizliyini təmin etməklə yanaşı, paytaxtın görünüşünə əlavə gözəllik verir. Təməli 2011-ci il dekabrın 24-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulan Bakı Ağ Şəhər layihəsinin baş planında nəzərdə tutulan şəhər tipli 10 universal kvartalın bir neçəsi artıq istifadəyə verilib. Hazırda Bakı Ağ Şəhər layihəsinin yeni Park Kvartalında abadlıq və infrastruktur-kommunikasiya işləri yekunlaşıb. Yaşayış binaları, məktəb və uşaq bağçası, biznes mərkəzi, inzibati dövlət binası, yeraltı avtodayanacaqlar və böyük park kompleksindən ibarət müasir kvartalda sakinlərin rahat yaşayışı üçün hərtərəfli şərait yaradılır, yeni yollar salınır.






Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov və Bakı Ağ Şəhər layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlətimizin başçısına və birinci xanıma ərazidə görülən işlər barədə məlumat verdilər. Bildirildi ki, Ağ Şəhərdə tikinti-quruculuq işləri çərçivəsində eni 37 metr, uzunluğu 2 kilometrə çatan Mərkəzi Bulvar küçəsinin Nobel prospektinə birləşməsi istiqamətində işlər görülüb.

Dövlətimizin başçısı və birinci xanım buradakı parkın abadlaşdırılması və genişləndirilməsi planı ilə də tanış oldular. Bakı Ağ Şəhər layihəsinin icraçı direktoru Ruslan Sadıxov görülən və görüləcək işlər barədə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verdi.

Prezident İlham Əliyev Bakı Ağ Şəhər Mərkəzi Bulvar küçəsinin rəmzi açılışını bildirən lenti kəsdi.



Dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva buradakı parkda ağac əkməklə abadlaşdırma işlərinə start verdilər.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Park Kvartalı ilə tanış oldular. Məlumat verildi ki, artıq bir neçə ildir Mərkəzi Bulvar küçəsinin Xəqani Rüstəmov küçəsindəki dairəyə birləşən hissəsi istismara verilib. Küçəni əhatə edən Paris evləri, quraşdırılmış heykəllər və yaşı yüz illərlə ölçülən dekorativ zeytun ağacları ərazinin bəzəyidir. Fəvvarələr Meydanı və Mərkəzi Park kvartallarını ayıran Mərkəzi Park küçəsi Ağ Şəhərin iki kilometrlik manevr gəzinti zolağı ilə kəsişir və burada piyadalara üstünlük verildiyini bildirən hündür piyada keçidləri salınır. Küçə, eləcə də Park Kvartalının ərazisində qərbdən London memarlıq üslubunda layihələndirilmiş möhtəşəm "Knightsbridge Residence" kompleksi və şərqdən Böyük Park kompleksi və iyirmimərtəbəli müasir binalara keçidləri təmin edir. Müasir şəhər trendlərinə uyğun olaraq, Mərkəzi Bulvar küçəsi ilə Nobel prospektinin kəsişməsində avtomobillərin, piyadaların və velosipedçilərin təhlükəsiz hərəkətini təmin etmək üçün xüsusi yolayrıcı layihəsi işlənilib və həyata keçirilib. Bu yolayrıcında piyada və velosipedçilərin üstünlüyünü qeyd edən zolaqlar və yol nişanları, qoruyucu tumbalar nəzərdə tutulub.

Növbəti mərhələdə Mərkəzi Bulvar küçəsinin Nobel prospekti ilə kəsişməsinin işıqforla tənzimlənməsi, Bulvar yoluna birləşməsi və avtomobillərin bu küçə ilə birbaşa Sahilyanı kvartala və Ağ Şəhər Bulvarına hərəkəti planlaşdırılır. Mərkəzi Bulvar küçəsi Ağ Şəhərin təkrarolunmaz üslubunu əks etdirən xüsusi detallarla bəzədilib - eni 11 metrə çatan səkilərdə yaşıllıqlar, arabalar üçün panduslar salınıb, səkilərdə küçənin adı daş nişanlarla qeyd edilib, yol göstəriciləri və xəritələr, incəsənət nümunələri quraşdırılır, piyada keçidləri və avtomobillər üçün xüsusi dayanacaq yerləri təşkil edilir.

Yeni salınmış yaşıllıq zolağında əvvəllər ərazidə yerləşən və 1863-cü ildə ilk dəfə Bakıda tətbiq edilmiş ağ neftin ikiqat təmizlənməsi qurğuları bərpa edilərək saxlanılıb. Burada yaradılan yaşıl istirahət zonalarında çinar, zeytun, palma, şam ağacları, sərv və çox sayda yeni ağaclar əkilib, eləcə də Ağ Şəhər ərazisində illər boyu bitən ağaclara buraya köçürülərək, onlara yeni həyat verilib. Qara şəhərin tarixi irsinə hörmətlə yanaşaraq, burada XIX əsrdə dünyanın ən qabaqcıl ağ neftin təmizlənməsi qurğuları, XIX əsrin sonları - XX əsrin əvvəllərində neft çənləri əhatə edən istinad divarı və 1890-1940-cı illərdə əhaliyə təmiz suyun paylanmasını təmin edən pavilyon bərpa edilib. XIX əsrə aid olan neft anbarlarını əhatə edən istinad divarı da qorunub saxlanılıb, divar boyunca Olimpiya kvartalına piyada keçidi salınıb. Yeni salınan yaşıllıq zolağında parka keçid pillələri kompleksi yaradılıb, layihənin tarixi və göstəriciləri haqqında qranit xatirə daşı qoyulub.

Prezident İlham Əliyevə Ağ Şəhərdə mərhələlərlə görülən işlər, Nobel prospekti üzrə xüsusi layihələndirilmiş binalar haqqında ətraflı məlumat verildi. Bildirildi ki, burada yerli və xarici sənətkarların incəsənət nümunələri qoyulub və gələcəkdə bu işlər davam etdiriləcək. Bundan əlavə, Olimpiya kvartalında görülən infrastruktur işləri, o cümlədən eni 80 metr olan Nobel, Babək, Heydər Əliyev prospektlərini, Ziya Bünyadov küçəsini və gələcəkdə tikiləcək bulvar küçələrini birləşdirən yol və digər infrastruktur layihələri barədə məlumat verildi. Qeyd edildi ki, Ağ Şəhərdə ofis, yaşayış, inzibati, dövlət binalarının, parkların və digər tikililərin inşası nəzərdə tutulub.

Prezident İlham Əliyev:

-Hər il biz ənənəvi olaraq Ağ Şəhərin təməlqoyma günündə görülən işlərlə tanış oluruq və gələcək il üçün planlar tərtib edirik. 2019-cu ildə görülən işlər yüksək səviyyədədir, mən bunu bəyənirəm. 2020-ci ildə də nəzərdə tutulan bütün planlar gərək həyata keçirilsin, o cümlədən yol infrastrukturu. İnvestorlar üçün yeni təkliflər ortaya qoyulmalıdır ki, investorlar Ağ Şəhərin tikintisinin davam etdirilməsinə və tamamlanmasına daha böyük həvəslə vəsait yatırsınlar. Görülmüş işlər münasibətilə sizi təbrik edirəm, yeni uğurlar arzulayıram. Sağ olun.

Bakı Ağ Şəhər layihəsinin icraçı direktoru Ruslan Sadıxov görülən işləri yüksək qiymətləndirdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi və onu doğum günü münasibətilə təbrik etdi. Sonda xatirə şəkilləri çəkdirildi.

# “Mən Prezidentin etimadını, ən başlıcası isə, mənə inanan və ümid bəsləyən insanların etimadını doğrultmalıyam”

***Azərbaycan dövlət idarəçiliyində ciddi rol oynayan, cəmiyyətin tərəqqisi naminə sosial layihələrin müəllif olan, yüksək mənəvi keyfiyyətləri ilə cəmiyyətdə xeyriyyəçi, şəfqətlik, mərhəmət simvoluna çevrilən Mehriban Xanım Əliyeva əməli fəaliyyəti ilə müasir tariximizdə özünə məxsus yerə və rola malikdir. Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun sədri, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban Əliyeva çoxşaxəli fəaliyyəti ilə bir örnəyə çevrilib. Azərbaycan Respublikasının Prezidentinin 21 fevral 2017-ci il tarixli Sərəncamı ilə Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi, Ona göstərilən bir etimad oldu. Təbii ki, bu, Onun yüksək mənəvi keyfiyyətlərindən, işgüzarlığından və idarəetmə bacarığından irəli gəlirdi. Birinci vitse-prezident təyin olunandan bir neçə gün sonra Mehriban xanım “Rossiya 1” telekanalının “Vesti nedeli” proqramına müsahibəsində “Mən Prezidentin etimadını, ən başlıcası isə, mənə inanan və ümid bəsləyən insanların etimadını doğrultmalıyam” deyə bildirmişdi.***



Dövlət başçısının məlum Sərəncamından, çox keçmir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə martın 9-da Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr olunmuş müşavirə keçirilir. Müşavirədə çıxış edən Birinci vitse-prezident Mehriban Əliyeva görülən işlərlə yanaşı, hələ də ağır vəziyyətdə, qəzalı və yararsız binalarda kifayət qədər məcburi köçkün ailəsinin yaşadığını və bu istiqamətdə işlərin sürətləndirilməsi üçün əlavə və təxirəsalınmaz addımların atılmalı olduğunu bildirmişdi. “Ona görə bizim qarşımızda məqsəd durur ki, çox qısa zamanda, bu problemləri aradan qaldıraq və yararsız vəziyyətdə olan bütün təhlükəli binalarda yaşayan soydaşlarımızı yeni mənzillərlə təmin edək” deyə Mehriban Əliyeva vurğulamışdı.

Qeyd edək ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sədrliyi ilə 2017-ci il martın 9-da keçirilən müşavirə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr olunmuşdur. Həmin müşavirədə Mehriban Əliyeva görülən işlərlə nəzər salınmasının vacibliyi ilə yanaşı, mövcud problemlərin də olduğuna diqqət çəkmişdir. Belə ki, bu gün respublika üzrə 80 min ailə və ya 340 min məcburi köçkünün mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyac olduğunu bildirmişdir. Həmin dövrdə respublika üzrə 636 min məcburi köçkündən 217 min nəfəri Bakı şəhərində müvəqqəti məskunlaşırdı. Paytaxtımızda kompakt məskunlaşma obyektlərində 41 min ailə, o cümlədən, 14 min ailə yataqxanalarda, 5 min ailə ictimai binalarda, 4 min ailə sanatoriya, pansionat və turbazalarda, daha 4 min ailə tikintisi yarımçıq qalmış binalarda, 2 min ailə təhsil müəssisələri və uşaq bağçalarında yaşayıdı. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva diqqətə çatdırılan mövcud problemlərin, qeyd olunan məsələnin qısa zamanda həll etmək üçün birgə çalışmağın vacibliyini vurğulamışdı: “Bu gün bizim qarşımızda duran əsas məqsəd dörd min köçkün ailəsini yeni mənzillə təmin etməkdir. Söhbət Bakı və Sumqayıt şəhərlərində məskunlaşan köçkün ailələrindən gedir... Biz işlərimizi iki istiqamətdə qurmalıyıq. Yeni mənzillər, yeni binalar tikilməlidir və inşa olunan yeni binalar keyfiyyət standartlarına tam cavab verməlidir”.

Artıq Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yaşayış kompleksi inşa edilib. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin, Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edilib. Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələri köçürülüb. Sumqayıtdakı 1005 məcburi köçkün ailəsi üçün inşa olunmuş yaşayış binalarının da açılışı olub.

Məcburi köçkün ailələrinə Masazır qəsəbəsində yeni mənzillərin verilməsi mərasimində Birinci vitse-prezident çıxışında bildirmişdi ki, mən öz fəaliyyətimdə sosial problemlərin, xüsusilə də, qaçqın və məcburi köçkün ailələrinin problemlərinin, çətinliklərinin həllinə xüsusi diqqətlə yanaşıram: “Bu gün Xəzər rayonunun Şüvəlan qəsəbəsində yararsız binada və Xətai rayonunda yarımçıq tikilmiş binada məskunlaşmış 214 ailə Masazır və Mehdiabad qəsəbələrində yeni inşa olunmuş və tam təmirli mənzillərə köçürülür... Hər bir azərbaycanlının ən böyük arzusu torpaqlarımızın işğaldan azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasıdır. ...Dövlətimiz bunun üçün əlindən gələni edir. Biz isə bu yolda birlik nümayiş etdirməliyik və inanmalıyıq ki, qarşımızda duran bütün məqsədlərə mütləq çatacağıq”.

Qaçqın və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması, problemlərinin öyrənilməsi və vaxtında həlli, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması daim dövlətin xüsusi diqqət mərkəzindədir. Cari il aprelin 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Nəsimi rayonunda Tibb Universitetinin 4 saylı yataqxanasında və Qaradağ rayonunda salınan “Qobu Park” yaşayış kompleksində məskunlaşan məcburi köçkünlərlə görüşü zamanı vurğuladığı kimi, “Prezident İlham Əliyevin diqqətində olan ən vacib məsələ məcburi köçkünlərin və qaçqınların yaşayış şəraitinin yaxşılaşdırılmasıdır və bu günə qədər çox böyük işlər görülüb, 300 mindən artıq insan evlə təmin olunub və təmin olunacaq. Son illərdə, mən görürəm ki, müsbət dinamika var. Əgər 2017-2018-ci illərdə 6126 mənzil təhvil verilibsə, bu il təkcə 1 il ərzində, 6 min mənzil təhvil veriləcək.”

Verilən vədlər artıq həllini tapıb. Təməli ötən ilin sentyabrında qoyulan “Qobu Park-2” yaşayış kompleksi məcburi köçkünlər üçün salınmış, artıq 106-cı qəsəbə oldu. Yeni qəsəbə ötən il Lökbatanda istifadəyə verilən “Qobu Park-1” yaşayış kompleksinin yanında inşa edilib. Hazırda “Qobu Park-3” yaşayış kompleksinin də tikinti işləri sürətlə davam etdirilir. Bu yaşayış komplekslərinin inşası Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilir.

Dövlətimizin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlər bu kateqoriyadan olan soydaşlarımızın hər zaman diqqət və qayğısı ilə əhatə olunduğunu göstərir. Mehriban Əliyeva görüşlərinin birində belə deyib: “Bu günə qədər çox işlər görülüb...qaçqınımız, məcburi köçkünümüz mənzillə, evlə təmin olunub. Amma yenə də bu problem var. Biz gərək özümüz üçün proqram yaradaq ki, bütün bu məsələləri, ardıcıl olaraq həll edək və bütün soydaşlarımızı normal yaşayış şəraiti ilə təmin edək. Mən bu yolda əlimdən gələn hər şeyi etməyə hazıram”.

Heç bir şübhə yoxdur ki, görülən işlər, davamlı səylər nəticəsində, ölkəmizin ərazi bütövlüyü yaxın zamanda bərpa ediləcək. İşğaldan azad olunacaq ərazilərdə Azərbaycan dövlətinin yenə öz imkanları hesabına həyat tamamilə yenidən qurulacaq, məcburi köçkün olan soydaşlarımız öz ata-baba yurdlarına qayıdaraq, doğma torpaqlarında yaşayacaqlar. Bu zaman onlar yenə dövlətin xüsusi qayğısı ilə əhatə ediləcək və bütün sosial problemləri öz həllini tapacaq. Buna hər kəs inanır və Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında sıx birləşib.

## GENİŞMİQYASLI FƏALİYYƏTİ İLƏ DÖVLƏTLƏRARASI DOSTLUQ MÜNASİBƏTLƏRİNİN MÖHKƏMLƏNDİRİLMƏSİNƏ MÜHÜM TÖHFƏLƏR VERİR

Artıq bir neçə gündən sonra yola salacağımı 2019-cu ildə Azərbaycan Birinci vitse-Prezidentin gördüyü işlərə nəzər salsaq, görərik ki, miqyası və əhəmiyyəti baxımından təqdirəlayiqdir. Bu ilin ilk ayında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransanın sabiq Prezidenti Nikola Sarkozi ilə görüşü dövlətələrarası dostluq münasibətlərinin daha da dərinləşməsinə öz töhfəsini verib. Nikola Sarkozinin prezidentlik fəaliyyəti dövründə Fransa-Azərbaycan əlaqələrinin uğurlu inkişafında xanım Mehriban Əliyevanın rolunu qeyd etməliyik. Mehriban Əliyevanın Azərbaycan-Fransa Parlamentlərarası Dostluq Qrupunun rəhbəri kimi fəaliyyəti və eləcə də, Heydər Əliyev Fondu tərəfindən Fransada mühüm humanitar layihələrin həyata keçirilməsi əməkdaşlığın daha da möhkəmlənməsi işinə böyük töhfə verib.

Cari ildə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Gürcüstan Prezidenti Salome Zurabişvili ilə, Böyük Britaniyanın Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi ilə, Fransa Senatının sədri Jerar Larşe ilə, Fransa Milli Assambleyasının sədri Rişar Ferran ilə və digər görüşləri, eləcə də, səfərləri Azərbaycan ilə dünya ölkələri arasında müxəlif sahələri əhatə edən əlaqələrin qurulması və daha da genişlənməsində mühüm rol oynayıb. Bu sırada Azərbaycan Rusiya əlaqələnin inkişafında Mehriban Əliyevanın fəaliyyətini vurğulamaq mütləqdir. Cari il noyabrın 21-25-də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Rusiya Federasiyasına rəsmi səfəri də iki ölkə arasındakı əlaqələrin dostluq və əməkdaşlıq ənənələrinə söykənərək, inkişaf etdiyini bir daha göstərdi. Başlıcası isə, təsdiq olundu ki, Azərbaycan Rusiyanın həm strateji, həm də Cənubi Qafqazdakı əsas siyasi-iqtisadi müttəfiqidir. Səfər çərçivəsində Azərbaycan-Rusiya münasibətlərinin inkişaf etdirilməsində və möhkəmləndirilməsində xidmətlərinə görə, Mehriban xanım Əliyevaya Prezident Vladimir Putin tərəfindən “Dostluq” ordeni təqdim edildi. Bu, əlbəttə ki, Birinci vitse-prezidentin çoxşaxəli fəaliyyətinə verilən növbəti böyük dəyər idi. Azərbaycanın yüksək dəyərlərinin, humanizm prinsiplərinin beynəlxalq aləmə təqdimində əvəzsiz rol oynayan Mehriban xanım Əliyeva genişmiqyaslı fəaliyyəti ilə dövlətlərarası dostluq münasibətlərinin möhkəmləndirilməsinə də mühüm töhfələr verir.

Mehriban xanım Əliyevanın Rusiyaya səfəri çərçivəsində keçirilən görüşlər, X Azərbaycan-Rusiya Regionlararası Forumunda, XTNS-də “Azərbaycan” pavilyonunun açılışı göstərdi ki, həqiqətən də, iki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq, mehriban qonşuluq və səmimi dostluğun nəticəsidir. Mehriban Əliyevanın Rusiyanın Baş naziri Dmitri Medvedev ilə keçirdiyi görüş, Rusiya Prezidenti Vladimir Putinlə apardığı danışıqlar müsbət töhfələr verir. Bu və ya digər görüşlər Azərbaycanla Rusiya arasında bütün parametrlər üzrə çox sıx siyasi dialoq mühitinin formalaşmasından xəbər verir.

Birinci vitse-prezident Mehriban Əliyeva Moskvada X Azərbaycan-Rusiya Regionlararası Forumunda da iştirak etdi. Forumda çıxış edən Birinci vitse-prezident Mehriban Əliyeva “Rusiya və Azərbaycan prezidentlərinin siyasi iradəsi, onların birgə səyləri sayəsində, bu gün bizim əməkdaşlığımız strateji tərəfdaşlıq xarakteri kəsb edib” deyə bildirmişdi: “Dövlət başçılarının sıx dostluq münasibətləri, qarşılıqlı səfərləri, müntəzəm görüşləri həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində münasibətlərin inkişafına xüsusi dinamika verir. Sevindirici haldır ki, bu gün ölkələrimiz arasında çoxcəhətli tərəfdaşlıq, praktiki olaraq, bütün sahələri əhatə edir. Möhkəm ikitərəfli müqavilə-hüquqi baza yaradılıb, 200-dən çox sənəd imzalanıb”. Mehriban xanımın səfəri çərçivəsində yadda qalan məqamlardan biri də Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində “Azərbaycan” pavilyonunun bərpa edildikdən sonra açılışı idi.

Onun işgüzar səfərləri, ziyarətləri gərgin fəaliyyətini əks etdirir. Birinci vitse-prezidentin milli maraqlarımıza əsaslanan fəaliyyəti ölkəmizin dünyada sülhün və firavanlığın carçısı kimi tanınmasında çox böyük rol oynayır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Əli Əhmədov: “İlham Əliyev artıq dünya miqyasında tanınan və hörmət edilən lider kimi qəbul olunur”

## *Yeni Azərbaycan Partiyasının sədr müavini - icra katibi, Baş nazirin müavini Əli Əhmədovun APA-ya müsahibəsi*

***- 2019-cu il Prezident İlham Əliyev tərəfindən islahatlar ili elan olundu. Bu il ərzində həyata keçirilən islahatları necə dəyərləndirirsiniz?***



- Azərbaycan dünyanın ən çox və uğurla islahatlar həyata keçirən ölkələrindən biridir. Müxtəlif beynəlxalq təşkilatların reytinq cədvəllərində Azərbaycan ən uğurla islahat keçirən dövlətlərdən biri kimi qeyd olunur. Hesab edirəm ki, Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi altında həyata keçirilən islahatlar Azərbaycanın inkişaf dinamikasını daha da yüksəldir. Xüsusilə 2019-cu il islahatların daha geniş miqyas aldığı bir dövr kimi yaqin ki, tariximizə daxil olacaq. Hesab edirəm ki, bu il həyata keçirilən islahatlar Azərbaycanın həm iqtisadiyyatını, həm də həyatımızın bütün sahələrini ciddi şəkildə dəyişdirəcək. Bir şey tamamilə aydındır, 2019-cu ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən bir çox sosial paketlər Azərbaycan vətəndaşlarının həyatını, həyat səviyyəsini əhəmiyyətli şəkildə dəyişdirib. Digər islahatlar var ki, onların da bir hissəsi həyata keçirilib, bir hissəsi isə Prezidentin də qeyd etdiyi kimi, bundan sonra da davam etdiriləcək. Güman edirəm ki, bu dəyişikliklər Azərbaycanın inkişafının yeni pilləyə qalxmasını təmin edəcək. Təbiidir ki, ilk növbədə, Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsi, digər cəhətdən isə həyatımızın bütün sahələri, o cümlədən də idarəetmə sferasında ciddi dəyişikliklərin aparılması nəzərdə tutulub. Bunların bir hissəsi artıq həyata keçirilib, kadr dəyişiklikləri bu islahatların tərkib hissəsidir. Amma söhbət təkcə kadr dəyişikliyindən getmir, bütövlükdə idarəetmənin struktur təkmilləşdirilməsi və yeni dünya baxışının ortaya qoyulması nəzərdə tutulur. Güman edirəm ki, bunlar həm kifayət qədər cəsarətli islahatlardır, həm də böyük gələcəyi olan dəyişikliklər kimi qiymətləndirilə bilər.

***- Prezident İlham Əliyev həm də Yeni Azərbaycan Partiyasının sədridir. YAP Prezidentin bu dəyişikliklərinə necə uyğunlaşır?***

- Təbiidir ki, hər bir dəyişiklik cəmiyyətin yeni keyfiyyət halının formalaşmasına xidmət edir. Əgər dəyişikliklər bütövlükdə kompleks xarakter daşıyırsa, həyatın bütün sahələrini əhatə edirsə, yəqin ki, bütün strukturlar, qurumlar və bütün insanlar bu dəyişikliyə uyğunlaşmağa çalışmalıdırlar. O cümlədən də Yeni Azərbaycan Partiyası

bu gün qarşısına qoyduğu vəzifələrdən birini onda görür ki, dəyişikliklərə uyğunlaşsın, partiyaya yeni nəfəs gəlsin. YAP-a mütəmadi olaraq gənc insanlar gəlir, onlar Yeni Azərbaycan Partiyasına özlərinin yeni dünyagörüşünü, yeni baxışlarını gətirirlər. Təbiidir ki, Prezidentin qarşıya qoyduğu vəzifələrin öhdəsindən gəlmək üçün onun rəhbərlik etdiyi partiya da kütləvi dəyişikliklərə uyğun olmalıdır. Güman edirəm ki, bu dəyişiklikləri ardıcıl sürətdə YAP-ın iş prinsipində görəcəyik.

***- İslahatlar paketinin bir hissəsi kimi Azərbaycanda növbədənkənar parlament seçkiləri elan olunub. Hakim partiya bu seçkilərə necə hazırlaşır və gözləntiləriniz nələrdir?***

- Yeni Azərbaycan Partiyası hazırda daha çox bələdiyyə seçkiləri ilə məşğuldur. Güman edirəm ki, YAP-ın irəli sürdüyü bələdiyyə namizədləri uğur qazanacaq, beləliklə də, Azərbaycan bələdiyyələrində YAP öz mövqelərini qoruyub saxlayacaq. O ki qaldı parlament seçkilərinə, buna hələ vaxtımız var. Seçkinin biri başa çatdıqdan sonra digəri ilə də ciddi şəkildə məşğul olacağıq. Namizədlərin müəyyənləşdirilməsi, onların təsdiq edilməsi və prosedur qaydalarına uyğun şəkildə onların qeydiyyatdan keçməsindən tutmuş seçki kampaniyası strategiyasının hazırlanıb həyata keçirilməsinə qədər ardıcıl sürətdə bütün işlərimizi ənənəmizə uyğun olaraq uğurla apara biləcəyik.

***- Bu il Prezident İlham Əliyevin beynəlxalq tədbirlərdə çıxışı da dünya mediasının gündəmində olub. Bu haqda da fikirlərinizi bilmək istərdik.***

- İlham Əliyev artıq dünya miqyasında tanınan və hörmət edilən lider kimi qəbul olunur. Təbii ki, onun beynəlxalq tədbirlərdə çıxışları da diqqət mərkəzində olur və ciddi rezonanslar yaradır. Bu mənada hesab edirəm ki, bu, bir yandan Azərbaycan Prezidenti İlham Əliyevin özünün şəxsi keyfiyyətləri ilə bağlıdır, digər yandan da lider kimi ona bəslənən böyük hörmətin, Azərbaycana olan diqqətin ifadəsidir. Təbiidir ki, bu, həm də Azərbaycanın mövqeyinin açıq şəkildə Prezident tərəfindən ifadə edilməsinin bariz nümunəsidir. Azərbaycan müstəqil siyasət həyata keçirir, Prezident dəfələrlə qeyd edib ki, “Biz bir sıra dövlətlərdən fərqli olaraq Azərbaycan dövlətinin mənafeyinə uyğun şəkildə tam müstəqil siyasət həyata keçirə bilirik. Bunun da kökündə Azərbaycanın iqtisadi potensialı, dövlətçilik ənənələri, tam müstəqilik ideyalarına söykənməsi kimi təməllər dayanır”. Beləliklə də, müstəqil siyasət həyata keçirən dövlətin rəhbərinin səsləndirdiyi bəyanatlar da istər-istəməz dünya miqyasında da, regional səpkidə də kifayət qədər böyük diqqətə səbəb olur. Xüsusilə Dağlıq Qarabağ probleminin həll olunması ilə əlaqədar Prezident İlham Əliyevin çox kəskin mövqeyinin ifadə olunması hesab edirəm ki, bir tərəfdən Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əlaqədar mövqeyinin ifadəsi kimi dərk edilməli, qiymətləndirilməli, ikinci bir tərəfdən isə Azərbaycanın özünə inamının ifadəsi sayılmalıdır. Üçüncü məqam kimi isə bu, dövlət başçısı kimi İlham Əliyevin cəsarətli və prinsipial mövqeyi kimi qiymətləndirilməlidir.

***- Bu gün Prezident İlham Əliyevin ad günüdür. Onunla ünsiyyətdə olan, yaxından tanıyan bir şəxs kimi Sizin də arzularınızı bilmək maraqlı olardı...***

- Hər şeydən əvvəl mən İlham Əliyevə möhkəm can sağlığı arzulayıram. İlham Əliyev sözün həqiqi mənasında xoşbəxt bir dövlət başçısı və siyasətçidir. Çünki onun həyata keçirdiyi siyasət insanlar tərəfindən yüksək qiymətləndirilir, rəğbətlə qarşılanır, insanların ona böyük hörməti və etimadı var. Onun həyata keçirdiyi siyasət uğur qazanır və bunun nəticəsində Azərbaycan XX əsrdə ən uğurlu gənc dövlətlərdən biri kimi etiraf olunmaqdadır. Siyasətçinin xoşbəxtliyi hər şeydən əvvəl onun həyata keçirdiyi siyasətin uğur qazanmasıdır, nailiyyətlərinin olmasıdır. İkincisi, vətəndaşlarının ona olan hörməti və ehtiramıdır. Bu yaxınlarda keçirilən sosioloji sorğu nəticəsində xalqın İlham Əliyevə olan etimadının nə qədər böyük olduğunun bir daha şahidi olduq. Bütün bunların hamısından çıxış edərək birmənalı şəkildə deyə bilərik ki, İlham Əliyev sözün həqiqi mənasında xoşbəxt dövlət başçısı və xoşbəxt siyasətçidir. Mən arzu edirəm ki, onun xoşbəxtliyi zaman etibarı ilə daha çox olsun. Çünki o, nə qədər Azərbaycana rəhbərlik edəcəksə, Azərbaycan bu rəhbərlikdən o qədər fayda və xeyir görəcək.

# Binəqədi rayonunda “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

***Dekabrın 24-də IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş “Bizim həyət” layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.***



AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.

Yeni il bayramı ərəfəsinə təsadüf edən tədbir zamanı abadlaşdırılan həyətin kiçik sakinləri üçün xüsusi bayram şənliyi təşkil edilib. Bayram tədbirində iştirak edən uşaqlar Şaxta baba, Qar qız, müxtəlif nağıl qəhrəmanları və məşhur personajlarla görüşüb, rəngarəng bəzədilmiş Yeni il küknarı ətrafında onlarla birlikdə əyləniblər. Şənliyin sonunda bütün uşaqlara bayram hədiyyələri təqdim olunub. Musiqili əyləncə proqramları ilə zəngin şənlik uşaqlarda xoş əhval-ruhiyyə yaradıb, balacalara əsl bayram ovqatı bəxş edib və onlara əyləncəli anlar yaşadıb.





Yenilənmiş həyət Binəqədi rayonu, 6-cı mikrorayon, Svetlana Məmmədova küçəsi 201, 203, 203B, İsrafil Həşimov küçəsi 4A ünvanlarında 2200 nəfər sakinin yaşadığı çoxmərtəbəli yaşayış binalarını əhatə edir.



“Bizim həyət” layihəsinin əsas məqsədi Bakıdakı binaların həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirməsi və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü mini futbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb, 400 metr uzunluğunda velosiped yolu çəkilib. Eyni zamanda, ərazidə 4 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb, həyətdəki xeyir-şər evi əsaslı təmir olunub və bütün avadanlıqlarla təmin edilib.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar və plastik pəncərələr quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 70 ədəd ağac və kollar əkilib və 2500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları və yanğın hidrantları quraşdırılıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# “Təhsilin inkişaf strategiyası: nailiyyətlər və əsas hədəflər” mövzusunda konfrans keçirilib






***Dekabrın 24-də Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə “Təhsilin inkişaf strategiyası: nailiyyətlər və əsas hədəflər” mövzusunda konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, konfransda çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-icra katibi Əli Əhmədov partiyanın ənənəvi olaraq ilin sonuna yaxın bu və ya digər əhəmiyyətli mövzularla əlaqədar konfrans keçirdiyini, fikir mübadiləsi apardığını diqqətə çatdırıb.***

Dekabrın 23-də ölkəmizdə bələdiyyə seçkilərinin keçirildiyini və YAP-ın da seçkilərdə öz namizədləri ilə iştirak etdiyini deyən Əli Əhmədovun sözlərinə görə, Azərbaycanda 1606 bələdiyyə üzrə xeyli sayda namizədlər mübarizə aparıblar. O qeyd edib ki, Mərkəzi Seçki Komissiyasının açıqladığı ilkin nəticələrə və partiyanın müşahidəçilərinin verdiyi məlumatlara əsasən, YAP-ın namizədlərinin əksəriyyəti seçicilərin səsini qazanıb. YAP-ın təmsilçilərini əldə etdikləri qələbə münasibətilə təbrik edən Əli Əhmədov əminliyini bildirib ki, seçkilərdə qalib gəlmiş partiya üzvləri bələdiyyələr vasitəsilə xalqa xidmət edəcək və ölkəmizin ümumi inkişafına öz töhfələrini verəcəklər.

Konfransın mövzusunun təhsil sahəsi ilə bağlı olduğunu deyən Əli Əhmədov bunun təsadüfi olmadığını söyləyib. O deyib ki, bütövlükdə inkişafın fundamental əsaslarından ən birincisi təhsildir. Baş Nazirin müavini qeyd edib ki, tarixboyu xalqlar yalnız elm və təhsil sayəsində inkişafa nail ola biliblər: “Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, insan kapitalının inkişaf etdirilməsi həyata keçirilən siyasətin qayəsini təşkil edir. Son illər təhsilin inkişafı ilə bağlı böyük layihələr həyata keçirilib, məktəblər tikilib, təhsilin məzmununun yüksəldilməsi istiqamətində addımlar atılıb. Biz inanırıq ki, təhsilin inkişafı iqtisadiyyatın inkişafının əsasını təşkil edəcək. İnanıram ki, təhsil işçiləri bu sahədə səylərini əsirgəməyəcəklər”.

Əli Əhmədov bildirib ki, konfransın keçirilməsinin təsadüf etdiyi 24 dekabr tarixi Azərbaycan Prezidenti İlham Əliyevin doğum günüdür. Onun sözlərinə görə, Azərbaycanın inkişafı, iqtisadi uğurlar, sosial layihələrin həyata keçirilməsi, ölkənin dünyada müasir imicinin, insanlarda gələcəyə ümidin formalaşması, ordunun gücləndirilməsi və digər nailiyyətlər Prezident İlham Əliyevin Heydər Əliyev siyasətini həyata keçirməsinin real təzahürüdür: “İnsanlar aydın dərk edirlər ki, Azərbaycanın gələcəyi Heydər Əliyev siyasəti və Prezident İlham Əliyevin bu siyasəti uğurla həyata keçirməsi ilə bağlıdır. Ona görə də insanlar Prezident İlham Əliyevə inanırlar”. Prezident İlham Əliyevi doğum günü münasibətilə təbrik edən Əli Əhmədov dövlətimizin başçısına cansağlığı və Azərbaycanın inkişafı naminə fəaliyyətində yeni-yeni uğurlar arzulayıb. “Xalqımız, o cümlədən Yeni Azərbaycan Partiyası xoşbəxtdir ki, onun Prezident İlham Əliyev kimi lideri var”, - deyə Əli Əhmədov vurğulayıb.

Konfransda çıxış edən Təhsil naziri Ceyhun Bayramov bildirib ki, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Həyata keçirilən sosial-iqtisadi islahatlar ölkəmizin iqtisadi qüdrətini daha da artırıb. Həyata keçirilən genişmiqyaslı islahatlar təhsil sahəsini də əhatə edib. Son illərdə təhsilin inkişafı istiqamətində strategiya və proqramlar həyata keçirilib. Bu gün təhsilin inkişafı dövlət siyasətinin əsas prioritet istiqamətlərindəndir.

Nazir ölkədə təhsilin inkişafı istiqamətində görülən işlərdən bəhs edib. O məlumat verib ki, 2019-2020-ci tədris ilinə dövlət ümumtəhsil müəssisələrinin I-XI sinifləri üçün 322 adda 5 milyon 668 min 865 nüsxə dərslik və metodik vəsait çap edilib, dövlət ümumtəhsil müəssisələrinin IV və VIII sinifləri üçün dərsliklər yeni tədris ilinə məzmun və dizayn baxımından təkmilləşdirilib və əsaslı şəkildə yenilənib.

Ceyhun Bayramov diqqətə çatdırıb ki, dövlət siyasətində təhsil sisteminin maddi-texniki bazasının müasirləşdirilməsinə və yeni şəraitin yaradılmasına xüsusi diqqət yetirilir. Bu məqsədlə Prezident İlham Əliyev tərəfindən çoxsaylı proqramlar, sərəncamlar imzalanıb. 2019-cu ildə 50-si modul tipli olmaqla 84 yeni təhsil müəssisəsinin tikintisi və əsaslı təmiri həyata keçirilib. Bu təhsil müəssisələrindən 43-ü sentyabrın 15-dək təhvil veriləcək. Digər 41 məktəbdə işlər ilin sonuna qədər yekunlaşacaq. Təhsil sisteminin maddi-texniki bazasının müasirləşdirilməsi və yenilənməsi sahəsində görülən işlərdən danışarkən mütləq Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xüsusi xidmətləri də qeyd edilməlidir. Heydər Əliyev Fondunun xətti ilə 14 yeni məktəb binasının tikintisi, 8 məktəbin əsaslı təmiri həyata keçirilir. Eyni zamanda, dövlət proqramına uyğun olaraq bu il ərzində 257 məktəbdə təmir işləri görülüb. Ümumilikdə götürdükdə 2003-2019-cu illər ərzində ölkədə 3300-ə yaxın yeni məktəb binası tikilib və ya əsaslı təmir olunub. Nəticədə bir milyondan çox Azərbaycan şagirdinin təlim-təhsil şəraiti əhəmiyyətli şəkildə yaxşılaşıb.

Nazir qeyd edib ki, təhsil sahəsində aparılan əməkhaqqı islahatlarını da diqqətdən kənarda qalmamalıdır. Müəllimlərin diaqnostik qiymətləndirilməsi aparılıb. Nəticədə 150 mindən artıq müəllimin dərs yükü 1,5 dəfə, əməkhaqqı isə orta hesabla 2 dəfə artıb. Təhsil sahəsində əməkhaqlarının artırılması sistemli və davamlı xarakter daşıyır. Sentyabrın 1-də qüvvəyə minən Sərəncam nəticəsində müəllimlərin orta aylıq əməkhaqqı təxminən 600 manatı keçib. Bu artımdan sonra ümumtəhsil sistemində çalışan 5 mindən çox müəllimin əməkhaqqı 1000 manatı keçib.

Ceyhun Bayramov son illərdə ölkəmizdə təhsil sahəsində müsbət dinamika müşahidə olunduğunu və bir sıra əsaslı nailiyyətlər əldə edildiyini diqqətə çatdırıb. Məktəbəqədər təhsilin əhəmiyyətindən danışan nazir UNİSEF və Avropa İttifaqının maliyyə dəstəyi ilə həyata keçirilən 3-5 yaşlı uşaqların icma əsaslı məktəbəqədər təhsilə cəlb olunması layihəsinə də toxunub. Qeyd edib ki, növbəti tədris ilində icma əsaslı məktəbəqədər qrupların sayının artırılaraq 300-ə, uşaqların isə 6000 nəfərə çatdırılması nəzərdə tutulur.

Təhsil naziri müəllim nüfuzunun, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, istedadlı insanların müəllim peşəsinə cəlb edilməsi istiqamətində görülən işlərdən də söz açıb. Vurğulayıb ki, həyata keçirilən bütün tədbirlər cəmiyyətdə işə qəbulun obyektivliyinə inam formalaşdırıb və 2019-cu ildə müsabiqədə iştirak edənlərin sayı əvvəlki illərə nisbətən xeyli artıb, müraciət edənlərin sayı 55 mini ötüb. Ümumilikdə son 5 ildə məktəblərin müəllim tərkibi keyfiyyət baxımından yaxşılaşıb, 20 mindən çox gənc müəllim işə qəbul olunub.

Tədrisdə İKT-dən istifadə imkanlarının genişləndirilməsi, “Rəqəmsal bacarıqlar” layihələri barədə məlumatları diqqətə çatdıran Ceyhun Bayramov qeyd edib ki, cari tədris ilində ilk dəfə olaraq 6000-dən çox şagird əhatə edilməklə məktəblərdə STEAM-in (təbiət elmləri, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın inteqrativ öyrədilməsi) tədrisinə start verilib. STEAM layihəsinin tətbiq edildiyi ümumtəhsil məktəbləri Təhsil Nazirliyi tərəfindən 3D printer, robot texnologiyalar və digər zəruri təlim avadanlıqları ilə təmin edilib. STEAM təhsilinin tədrisi məqsədilə 34 məktəbdən 104 müəllim peşəkar həyət tərəfindən keçirilən təlimlərdə iştirak edib. Layihə ilə əlaqədar nazirlik tərəfindən steam.edu.az portalı da istifadəyə verilib. Portalda STEAM təhsili üzrə yeniliklər, layihə üzrə görülən işlər və nəzərdə tutulan tədbirlər barədə məlumatlar yerləşdirilir. Layihənin tətbiq edilməsində məqsəd müasir təhsil çağırışları əsasında inkişaf etmiş ölkələrdə tətbiq edilən təhsil yeniliklərinin ölkəmizdə həyata keçirilməsi imkanlarının öyrənilməsi və tədris edilməsidir. Növbəti ildən regionların da STEAM layihəsində iştirakının təmin edilməsi və şagirdlərin sayının 20 minə çatdırılması nəzərdə tutulur.

Nazir qeyd edib ki, son illərdə ali təhsilin keyfiyyətinin yüksəldilməsi və bu sahənin təkmilləşdirilməsi istiqamətində ciddi islahatlar aparılıb. Yeni inkişaf trendləri əsas götürülməklə universitetlərin kadr potensialı və maddi-texniki bazası gücləndirilib, ali təhsilin əlçatanlığı istiqamətində mühüm addımlar atılıb.

Ceyhun Bayramov bildirib ki, hər il yüksək nəticələrlə ali məktəblərə qəbul olunan tələbələrə Prezident təqaüdünün, habelə gənclər üçün Prezident mükafatının təsis edilməsi onların daha yaxşı təhsil ala bilməsi, təhsilin əlçatanlığının təmin edilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Təhsil naziri məlumat verib ki, Azərbaycan Respublikası Prezidentinin “Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında” Sərəncamı və “Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün məbləğinin artırılması haqqında” Fərmanı ilə dövlət büdcəsinin vəsaiti hesabına doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğləri artırılıb. Bununla da 600-ə yaxın doktorantın və 110 mindən artıq tələbənin təqaüdləri orta hesabla 20 faiz artıb.

## Mərkəzi Seçki Komissiyası bələdiyyə seçkilərinin ilkin nəticələrini açıqlayıb



Dekabrın 23-də Azərbaycanda keçirilən bələdiyyə seçkiləri saat 19.00-da başa çatıb və bütün məntəqələr bağlanıb. Seçkilər 1606 bələdiyyə üzrə 15 min 156 bələdiyyə üzvü yerinə 42 minə yaxın iddiaçının iştirakı ilə keçirilib. Ölkə üzrə bütün məntəqələr - 118 dairənin 5049 məntəqəsi vaxtında, səhər saat 8-də açılıb. Gün ərzində səsvermənin gedişi ilə bağlı Mərkəzi Seçki Komissiyası (MSK) 5 dəfə ictimaiyyəti məlumatlandırıb. Günün sonunda ölkə üzrə seçicilərin 32,72 faizinin səsvermədə iştirak etdiyi məlum olub.

AZƏRTAC xəbər verir ki, bu sözləri Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bələdiyyə seçkilərinin ilkin nəticələri ilə bağlı keçirdiyi mətbuat konfransında deyib.

Bildirilib ki, gün ərzində səsvermə prosesini kütləvi informasiya vasitələri ictimaiyyətə çatdırıb. Ümumilikdə bütün məntəqələrdə səsvermə normal keçib, bu və ya digər xoşagəlməz hadisələrlə bağlı əsasən, sosial şəbəkələrdə müəyyən məlumatlar yayılıb. Amma MSK-ya bir müraciət daxil olub. O müraciət aidiyyəti üzrə dairə seçki komissiyasına göndərilib. Çünki məntəqədə baş verən hadisələrlə bağlı müraciət Seçki Məcəlləsinin tələbinə görə, ilkin olaraq müvafiq dairə seçki komissiyasına göndərilməlidir. Əgər iddiaçı dairə seçki komissiyasının qərarından narazı qalarsa, onda MSK-ya müraciət edə bilər. Ona görə biz Seçki Məcəlləsinin tələbinə uyğun olaraq qərarımızı verdik. Onu da qeyd edim ki, gün ərzində MSK-ya rəsmi müraciət daxil olmayıb. Amma sosial şəbəkələrdə yayılan görüntüləri MSK üzvləri artıq ciddi şəkildə araşdırmağa başlayıblar.

MSK sədri qeyd edib ki, ümumilikdə seçkilər sakit şəraitdə keçib, seçicilərin öz iradələrini ifadə etmələri üçün hər cür şərait yaradılıb, onlar da bundan lazımi qaydada istifadə ediblər. Yekunda 1606 bələdiyyə üzrə səsvermə baş tutub. Hazırda 4556 məntəqədən məlumatlar MSK-nın bazasına daxil olub. Bu da ölkə üzrə ümumi məntəqələrin 90,24 faizi deməkdir. Beləliklə, 1475 bələdiyyə üzrə məlumatlar hazırda MSK-nın bazasındadır. Bu, ölkə üzrə mövcud bələdiyyələrin 91,84 faizidir. Yəni, deyə bilərik ki, 1375 bələdiyyə üzrə ilkin nəticələrə görə üzvlərin hamısı artıq məlumdur. Bu, ölkə üzrə mövcud olan bələdiyyələrin 85,62 faizidir. İlkin nəticələrə görə, tam formalaşmış bələdiyyələrdə liderlik edən namizədlərin sayı 12 min 930 nəfərdir. Yəni, bu, ümumilikdə seçiləcək 15 min 156 bələdiyyə üzvünün 85,31 faizini təşkil edir. Gün ərzində MSK-nın 115 - "qaynar xətt"inə 220 müraciət daxil olub. Bunlardan 90-nı seçici siyahısı və məntəqələrin ünvanları ilə bağlı sorğulardır. 130 müraciət isə hüquqi məsələlərlə bağlı və məlumatlandırma xarakterli olub.

Məzahir Pənahov deyib ki, səsvermə məntəqələrinin 1000-də, yəni, təxminən 20 faizə yaxınında veb-kameralar quraşdırılmışdır. Bu veb-kameralara gün ərzində 198069 müraciət olub. Bunlardan 130218-i, yəni, 65,7 faizi ölkə daxilindən, 67851-i isə (34,3 faizi) xaricdən olub. Bu, çox diqqətçəkən rəqəmdir. Yəni, bu, seçkilərə kifayət qədər diqqətin olmasının göstəricisidir. Bundan əlavə, Mərkəzi Seçki Komissiyasının internet səhifəsindən istifadəçi sayı 282627 nəfər olub. Bu da ictimaiyyətin seçkilərə marağının göstəricisidir. Sonda suallar cavablandırılıb.

## "Dövlət başçısının fəaliyyəti hər bir məmur, aktiv insan üçün nümunədir"



"Prezident İlham Əliyev xalqın etimadını yüksək səviyyədə şəkildə doğrulda bildi. Son 16 il müddətində Azərbaycan beynəlxalq aləmdə müstəqilliyini bir daha təsdiq etdi". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib. O bildirib ki, bu illər ərzində ölkəmiz öz daxili və xarici siyasətini xalqın maraq və istəyinə uyğun olaraq qura bildi: "200 illik fasilədən sonra dövlətçiliyi yenidən davam etdirmək asan məsələ deyildi. Lakin bununla belə Ulu Öndər Heydər Əliyev siyasi məktəbinin yetirməsi olan cənab Prezident Azərbaycanın qarşısında duran böyük problemləri uğurla həll edə bildi".

A.Mirzəzadə söyləyib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu fəaliyyət nəticəsində iqtsadiyyatımız yenidən qurulur, sahibkarlar təbəqəsinə dövlət tərəfindən qayğı göstərilir, təbii sərvətlərdən gələn gəlir xalqın rifahının yüksəldilməsinə yönəldilir. Deputat qeyd edib ki, cənab Prezident xalqın içərisindən çıxdığına görə, xalqın nə istədiyini çox yaxşı bilir: "Ölkə başçısı tez-tez regionlara səfər etməklə, həm xalq qarşısında hesabat verir, həm də görülən işlərə nəzarət edir. Dövlət başçısının fəaliyyəti hər bir məmur, aktiv insan üçün yaxşı bir nümunədir".

## Azərbaycandan MDB ölkələrinə məhsul ixracı artıb




Bu ilin yanvar-noyabr aylarında Azərbaycandan MDB ölkələrinə 1 milyard 86,5 milyon ABŞ dolları dəyərində məhsul ixrac edilib. Dövlət Gömrük Komitəsindən AZƏRTAC-a bildirilib ki, bu göstərici ötən ilin eyni dövrünə nisbətən 72,6 milyon dollar çoxdur. On bir ayda Azərbaycanın MDB ölkələrindən idxal etdiyi məhsulun dəyəri isə 3 milyard 94,5 milyon dollar olub.

## Leonid Slutski: "Azərbaycanla münasibətlərin inkişafı Azərbaycanı qəlblərində yaşadan rusiyalılar üçün çox mühüm amildir"



2019-cu ildə Rusiya-Azərbaycan münasibətləri bütün istiqamətlərdə irəliləyib. Bu, Azərbaycan Respublikasının Milli Məclis ilə Rusiya Federasiyası Dövlət Duması arasında, həmçinin çoxsaylı başqa müvafiq profilli idarələr arasında əməkdaşlığa da aiddir.

Rusiya Federasiyası Dövlət Dumasının deputatı Leonid Slutski AZƏRTAC-ın müxbiri ilə söhbətində bu barədə danışıb. O deyib: "Bu il demək olar ki, hər gün Azərbaycan parlamentindən, nazirliklərdən, vətəndaş cəmiyyəti qurumlarından bu və ya digər nümayəndə heyəti Rusiyada olub. Eyni sözləri Rusiyadan Bakıya gedən nümayəndə heyətləri haqqında da demək olar. Ölkələrimiz arasında tarazlaşdırılmış və səmərəli qarşılıqlı münasibətlər həm postsovet məkanındakı dövlətlər üçün, həm də başqa ölkələr üçün örnək sayıla bilər. Tarixən bir-birinə yaxın məkanlarda yerləşən Rusiya və Azərbaycan arasında mehriban qonşuluq münasibətləri zərurətdən yaranıb, çünki dil, mədəniyyət, təhsil sahəsində xalqlarımızı bir-birinə bağlayan amillər çoxdur. Azərbaycanda rus dilində təhsilin qorunub saxlanmasına, Moskva Dövlət Universitetinin gözəl filialının yaradılmasına görə respublika rəhbərliyinə təşəkkürümü bildirmək istəyirəm. Azərbaycanla münasibətlərin inkişafı Azərbaycanı qəlbində yaşadan rusiyalılar üçün çox mühüm amildir. Bu münasibətlə hamımızı təbrik etmək istəyirəm".

RF Dövlət Dumasının deputatı daha sonra Azərbaycan Prezidenti İlham Əliyevi ad günü münasibətilə təbrik edib. O deyib: "Hələ yetərincə gənc olan bu uğurlu lideri ad günü münasibətilə təbrik etmək, İlham Heydər oğluna və onun səmimi ailəsinə, əməksevər qardaş Azərbaycan xalqına cansağlığı, uğurlar və sevgi diləmək istəyirəm".

## AVCİYA: Bələdiyyə seçkiləri qanunvericiliyə, demokratik normalara uyğun, şəffaf keçirilib

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) bu ilin fevral ayından başlayaraq bələdiyyə seçkiləri ilə əlaqədar geniş fəaliyyət proqramı həyata keçirib.




AZƏRTAC xəbər verir ki, assosiasiya bələdiyyə seçkilərinin azad, ədalətli, demokratik keçirilməsinə yardım göstərilməsi, seçkilərin Seçki Məcəlləsinin tələblərinə, Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərinə və demokratik seçkilər sahəsində beynəlxalq standartlara uyğunluğunu qiymətləndirməsi məqsədilə seçkilərin uzunmüddətli müşahidəsini təşkil edib.

AVCİYA Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlı qeyd edib ki, bununla əlaqədar bu il dekabrın 13-də ictimaiyyətə Aralıq Hesabatı təqdim olunub. Hesabatda seçkiqabağı siyasi mühit, söz və mətbuat azadlığı, KİV-in monitorinqinin nəticələri, sərbəst toplaşmaq azadlığı, namizədlərin irəli sürülməsi, qeydə alınması, seçici siyahıları, seçki administrasiyasının fəaliyyəti, təbliğat və təşviqat kampaniyası və AVCİYA haqqında geniş məlumat öz əksini tapıb. Assosiasiya bu il oktyabrın 3-də KİV nümayəndələrinin iştirakı ilə "Bələdiyyə seçkiləri: Yerli və beynəlxalq təcrübə" adlı tədbir, noyabrın 15-də təsdiq edilmiş qrafikə uyğun olaraq regionlarda bələdiyyə seçkiləri ilə bağlı maarifçilik tədbirləri həyata keçirib. Yerli və beynəlxalq təşkilatların Seçki Məcəlləsinin təkmilləşdirilməsi ilə bağlı müxtəlif dövrlərdə irəli sürdükləri təklif və tövsiyələri AVCİYA ekspertləri təhlil edərək Seçki Məcəlləsinin təkmilləşdirilməsi ilə bağlı öz təkliflərini irəli sürüblər.

Assosiasiya belə hesab edir ki, seçki ərəfəsi mövcud olan ictimai-siyasi mühit ölkədə azad və ədalətli seçkilərin keçirilməsinə imkan verib. Səsvermə günü 5 dəfə (saat 10.00, 12.00, 15.00, 17.00, 19.00) məntəqələrdəki seçici fəallığının vəziyyəti, müşahidə olunan qanun pozuntuları barədə məlumatlar AVCİYA Seçki Qərargahında toplanaraq ümumiləşdirilib. Assosiasiyanın bələdiyyə seçkilərinin yekunları ilə bağlı ilkin rəyi aşağıdakı kimidir:

AVCİYA-nın bələdiyyə seçkilərindəki müşahidəsinin nəticələri onu deməyə əsas verir ki, müşahidə aparılmış məntəqələrdə seçici fəallığı 39,75 faiz təşkil edib. AVCİYA seçki qərargahının rəhbəri bildirib ki, seçki günü ölkə üzrə bir neçə məntəqədə bəzi çatışmazlıqlar müşahidəçilərimiz tərəfindən qeydə alınıb. Qeydə alınan faktlarla bağlı dərhal məntəqə sədrləri ilə əlaqə saxlanılıb, nöqsanlar aradan qaldırılıb. Bu cür çatışmazlıqlar seçkilərin ümumi nəticələrinə təsir etmək gücündə olmayıb. Beləliklə, Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası həyata keçirdiyi müşahidənin nəticələrinə əsaslanaraq dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərini baş tutmuş hesab edir. Assosiasiya belə hesab edir ki, seçkilər qanunvericiliyə, demokratik normalara uyğun, şəffaf keçirilib.

## Yunanıstanda türk diplomatının avtomobili yandırılıb



Yunanıstanın Saloniki şəhərində Türkiyə baş konsulluğunun əməkdaşına məxsus avtomobil naməlum şəxslər tərəfindən yandırılıb. Hadisə yerinə yanğınsöndürənlər cəlb olunub. Yerli polis departamenti hadisə ilə bağlı istintaq aparır.

# Xalqın xidmətçisi - qurucu Lider

***Orta və yaşlı nəsil müstəqilliyin ilk illərinin necə ağır keçdiyini yaxşı xatırlayır. Ötən əsrin 80-ci illərinin sonlarında Azərbaycanın Dağlıq Qarabağ bölgəsində baş qaldırmış erməni separatizmi 90-cı illərin əvvəllərində daha da aqressivləşmiş, Ermənistanın təcavüzü nəticəsində ölkə ərazisinin 20 faizi işğal edilmiş, 1 milyona yaxın azərbaycanlı qaçqına və məcburi köçkünə çevrilmişdi.***

Eyni zamanda, SSRİ-nin süqutu ilə respublikanın ənənəvi iqtisadi və ticarət əlaqələri pozulmuş, maliyyə-iqtisadi və siyasi böhran dərinləşmişdi. Yalnız 1993-cü ildə ulu öndər Heydər Əliyev Azərbaycanda rəhbərliyə qayıtdıqdan sonra ölkə tədricən bu böhrandan çıxdı, ictimai-siyasi sabitlik, milli birlik və vətəndaş həmrəyliyi yaradıldı, cəmiyyət həyatının bütün sahələrində yenidənqurma prosesi başlandı. Müstəqil dövlətimizin qurucusu və banisi, ümummilli liderimiz Heydər Əliyev 16 ildir ki, aramızda yoxdur. Lakin onun ideyaları, siyasi irsi, yaratdığı dövlətçilik ənənələri, şah əsəri olan, uğrunda mübarizə apardığı, ağır faciələrdən, siyasi, sosial-iqtisadi və mənəvi-psixoloji böhrandan xilas etdiyi müstəqil və demokratik Azərbaycan Respublikası inkişaf edir və yeni-yeni uğurlar qazanır, Azərbaycan xalqı təhlükəsizlik şəraitində, rifah içində yaşayır.

Ümummilli Liderin siyasi kursunun yeganə düzgün yol olduğunu yəqin edən Azərbaycan xalqı 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə bu siyasətin layiqli davamçısı kimi İlham Əliyevi dəstəkləyərək, 76,8 faiz səslə Prezident seçdi. Bu tarix həm də ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən təməli qoyulan, 1991-ci ildən isə yenidən bərpa edilən milli demokratik dövlətçilik tariximizin xüsusi mərhələsinin başlanğıcı kimi xarakterizə oluna bilər.

İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti, seçkiqabağı təşviqat dövründə səsləndirdiyi "Mən hər bir azərbaycanlının prezidenti olacağam!" vədinə sadiq qalması qısa müddətdə ona xalq arasında geniş populyarlıq, sonsuz inam və güclü etibar qazandırdı. Elə bu səbəbdən 2008-ci, 2013-cü və 2018-ci illərdə keçirilən növbəti prezident seçkilərində də İlham Əliyev Azərbaycan xalqının böyük dəstəyi ilə yenidən inamlı qələbə qazandı.

Siyasətşünasların qənaətinə görə, Azərbaycanda Heydər Əliyev siyasi kursunun davam etməsi və ölkənin onun müəyyənləşdirdiyi inkişaf yolu ilə getməsinin qarantı rolunda məhz Ümummilli Liderin özü qədər inandığı və yüksək liderlik keyfiyyətlərinə güvəndiyi İlham Əliyev çıxış edə bilərdi. Sonrakı proseslər də sübut etdi ki, müasir Azərbaycan dövlətinin xilaskarı və banisi Heydər Əliyev öz seçimində qətiyyən yanılmayıb və onun siyasi kursunun davamçısı olan Prezident İlham Əliyev öz ölkəsini sonrakı dinamik inkişaf yoluna çıxara bilmiş, yeni idarəçilik modeli ortaya qoyaraq AZƏRBAYCANIN QURUCU LİDERİ kimi özünü təsdiq etmişdir.

Prezident İlham Əliyev 2003-cü ildən başlayaraq, ilk növbədə, ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş vətəndaş birliyi platformasına söykənərək daxili ictimai-siyasi sabitliyi, siyasi plüralizmi, demokratik təsisatları və vətəndaş cəmiyyəti institutlarını daha da möhkəmləndirmiş, əhalinin təhlükəsizliyini, insanların hüquq və azadlıqlarının qorunmasını və ölkənin əmin-amanlığını təmin etmişdir. Bununla yanaşı, haqqında bəhs olunan dövrdə ölkənin dayanıqlı sosial-iqtisadi inkişafı, transmilli layihələrin reallaşdırılması, ictimai və mənəvi həyatın modernləşdirilməsi, təsərrüfat və turizm sektorlarının genişləndirilməsi, şəhər və kəndlərin, xidmət və infrastrukturların yenilənməsi və s. sahələrdə geniş yenidənqurma işləri həyata keçirilmişdir. Görülən işlər qısa zaman kəsiyində vətəndaşların rifah halının getdikcə yüksəldilməsinə, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə, bazar iqtisadiyyatına çətin uyğunlaşan şəhid ailələrinə, müharibə veteranları və əlillərə, qaçqın və məcburi köçkünlərə, elm və təhsil işçilərinə qayğının artırılmasına, ordu quruculuğuna, elmin, təhsilin, mədəniyyətin, səhiyyənin inkişafına, milli-mənəvi dəyərlərin, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanması və inkişaf etdirilməsinə, gənclər və idman siyasəti sahələrində yeni-yeni uğurların qazanılmasına şərait yaratmışdır. Bununla yanaşı, İlham Əliyevin Prezident olduğu dövr ərzində digər əsas




daxili inkişaf parametrləri - makroiqtisadi sabitlik, iqtisadi islahatların aparılması, sosial və mənəvi təminat sisteminin dinamikasının təmin edilməsi, müsbət demoqrafik vəziyyətin qorunması, miqrasiya və urbanizasiya proseslərinin dövlətin nəzarəti altında saxlanması, dövlət idarəçiliyinin səmərəliliyi və digər bir çox sahələr üzrə də Azərbaycan region ölkələri arasında ön sıralara çıxa bilmişdir. Keçirilmiş islahatlar və qazanılmış uğurlar nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də etiraf edilib və edilməkdədir.

İlham Əliyev bütün bu uğurlara necə nail olmuş, hansı şəxsi və siyasi keyfiyyətləri onun QURUCU LİDER imici qazanmasına imkan vermişdir?

Bu məqalədə İlham Əliyevin 16 illik prezidentlik fəaliyyəti dövründə onun bəzi siyasi portret cizgiləri haqqında şəxsi mülahizələrimi oxucuların diqqətinə təqdim edəcəyəm.

Əvvəlcə siyasi ədəbiyyatda lider təsnifatına qısa nəzər salmaq istərdim. Görkəmli alman sosioloqu Maks Veberə görə, siyasi lider üçün üç əsas xüsusiyyət həlledicidir:

1. Fədakarlıq (özünü işinə və amallarına həsr etmək);

2. Öz amalı və işi qarşısında məsuliyyət hissi daşımaq;

3. Yüksək daxili inam və təmkin qabiliyyətinə malik olmaq, reallıqların təsiri və təzyiqinə qarşı təmkinli davranmaq, hadisələrin fövqünə qalxa bilmək.

Maks Veberin fikrinə görə, hər bir siyasətçi bu keyfiyyətlərə nə qədər çox malik olursa, o lider mövqeyinə daha çox yaxınlaşır və yüksəlir.

Tanınmış amerikalı alim, dünyada siyasi psixologiya üzrə aparıcı mütəxəssislərdən sayılan Marqaret C.Herman isə siyasi liderləri belə təsnif edir:

1. Lider-bayraqdar: bu tip liderlərin öz orijinal siyasi hədəfləri olur və həmin hədəflər naminə insanları öz arxasınca aparmaq bacarığına malik olurlar;

2. Lider-xidmətçi: bu tip liderlər öz ardıcıllarının maraqlarını dəqiq ifadə edərək, həmin maraqları məsuliyyətlə realizə etmək qabiliyyətinə malik olurlar.

Qeyd olunur ki, xidmətçi liderlər öz xalqının maraqlarının ardıcıl ifadəçisi kimi çıxış edərək, qətiyyətli və mütəşəkkil formada həmin maraqları müdafiə və təmin edirlər. Praktikada belə liderlər seçicilərinin ehtiyac və tələblərini, inamlarını və gözləntilərini daim öyrənir və nəzərə alaraq fəaliyyət göstərirlər. Məhz xalq-seçici və onun maraqları bu tip liderlər üçün əsas fəaliyyət istiqamətlərini və məqsədlərini formalaşdırır.

Siyasətşünaslıq və sosiologiya elmində ələvə olaraq, öz xalqının tarixində xüsusi rol oynayan islahatçı və inqilabçı lider anlayışları da mövcuddur. Belə liderlərə xalqlarının, dövlətlərinin gələcək taleyi üçün dəyişikliklərin gərəkliliyini dərk edərək, ya inqilabi yolla, ya da inandırma yolu ilə, tədrici islahatlar həyata keçirməklə, ictimai ideallara, milli-mənəvi dəyərlərə söykənməklə hərəkət etmək xasdır.

Əlbəttə, politoloqlar bütün bu sıralamada qeyd olunan lider tiplərini nəzəri baxımdan təsnif edirlər, lakin real siyasi müstəvidə isə bəhs olunan liderlər bu və ya digər tiplərə aid edilsə belə, onlar başqa qrupa aid olan liderlərin də müxtəlif keyfiyyətlərini az, yaxud çox formada özündə daşıyır, sadəcə bu keyfiyyətlərdən hansının daha çox üstünlük təşkil etməsinə görə bu və ya digər tipə aid edilir.

İlham Əliyevin ictimai-siyasi fəaliyyəti Yeni Azərbaycan Partiyasının proporsional siyahısına rəhbərlik etməsi ilə başlayıb. Bu, artıq onun özünü Heydər Əliyev siyasi irsinin davamçısı kimi gördüyünün açıq şəkildə ifadəsi idi. Bununla da o zaman mediada İlham Əliyevin hakimiyyətə hansısa yeni partiya və ya siyasi qüvvə ilə gələcəyi haqda spekulyativ müzakirələrin də əsassızlığı nümayiş etdirdi.

Prezident kimi fəaliyyətə başladıqdan sonra da ilk çıxışlarında o, Heydər Əliyevin daxili və xarici siyasət kursunu davam etdirəcəyini, ölkəni tədrici, amma davamlı islahatlar yolu ilə irəli aparacağını bəyan etmişdi. Bu vədə əməl olunduğunu biz keçən müddətdə təkcə siyasətə baxışda deyil, həyatın bütün sahələrində siyasi varisliyə, milli ənənələrə və mənəvi dəyərlərə münasibətdə müşahidə etdik. İlham Əliyev, eyni zamanda, təkcə Heydər Əliyevin daxili və xarici siyasət kursunu davam etdirməklə kifayətlənmədi, korrektə və islah edilməsi vacib olan bütün sahələrdə mütləq islahatlar apardı, müasir dünya nizamının və transmilli tərəfdaşlıq əlaqələrinin yeni çağırışlarına adekvat reaksiya verərək, inamla gələcəyə doğru irəlilədi.

İlham Əliyev Azərbaycanın inkişafını necə təsəvvür etdiyini 2019-cu il fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında çıxışı zamanı yığcam olaraq belə ifadə etmişdir: "Biz islahat naminə islahat aparmırıq. Biz məqsədyönlü, düşünülmüş addımlar atırıq ki, ölkəmizin inkişafına yeni təkan verək, həll olunmamış problemləri həll edək, nöqsanları, xoşagəlməz halları, çatışmayan məqamları aradan götürək və bunu edirik...".

Bu fikirlər İlham Əliyevin islahatçı yanaşmasını digər postsovet ölkələrində, eləcə də 1990-cı illərin əvvəllərində Azərbaycanda müşahidə etdiyimiz "rəngli inqilabi dəyişiklik" platforması tərəfdarlarının yanaşmasından köklü şəkildə fərqləndirir. "Rəngli" - qanlı inqilabların liderləri özlərinə qədər mövcud olan idealları, siyasi, bəzən də mənəvi irsi inkar edir, cəmiyyətin kökündən yenidən qurulmasını, dilin, dinin, ölkənin adının, əlifbasının dəyişdirilməsini, bir sözlə, hər şeyin məhv edilib sıfırdan başlamasını məqsədəuyğun hesab edirlər. Prezident İlham Əliyevin islahatlar kursunda belə eksperimentlərə, nihilist yanaşmalara yer yoxdur. İslahatların yeni mərhələsinə start verilməsi də "rəngli inqilab"ların təklif etdiyi yol deyil, 1930-cu, 1980-ci və 2000-ci illər Türkiyəsində, Konrad Adenauer Almaniyasında, 1980-1990-cı illərin Məhazir Məhəmməd Malayziyasında, 1960-1970-ci illərdə Sinqapur və Cənubi Koreyada, eləcə də qansız-rəngsiz inkişaf yolu keçmiş digər ölkələrdə müşahidə edilmiş köklü islahatlar yoludur.

Əlbəttə ki, biz bu yazıda qarşımıza dərin psixoloji-siyasi portret yaratmaq məqsədi qoymadığımızdan liderlik haqda bu tanıtma ilə kifayətlənirik.

Prezident İlham Əliyevi xarakterizə edən keyfiyyətlər, əlbəttə, təkcə bir lider tipinə xas deyil. Yuxarıda da qeyd edildiyi kimi, dünyanın müasir siyasi səhnəsində yer alan liderlər adətən bir neçə siyasi portret tipinə aid keyfiyyətlərin daşıyıcısı olur, lakin onlarda bu və ya digər lider obrazının ümdə xüsusiyyətləri daha qabarıq nəzərə çarpır. İlham Əliyevin prezidentliyi, daha əvvəl isə YAP-ın proporsional sistem üzrə seçki siyahısına və Azərbaycan parlamentindəki YAP qrupuna, AŞPA-da Azərbaycan nümayəndə heyətinə rəhbərliyi və Azərbaycan Respublikasının Baş Naziri kimi fəaliyyəti onu QURUCU-İSLAHATÇI LİDER tipinə aid etməyə əsas verir. Bunu bizim İlham Əliyevin keçdiyi siyasi bioqrafiyaya, fəaliyyətinin xarakteristikasına, özünəməxsus leksikonuna aid təqdim etdiyimiz nümunələr də təsdiqləyir.

Azərbaycançılığı əvvəlcə qurucusu olduğu Yeni Azərbaycan Partiyasının, daha sonra Azərbaycan dövlətinin əsas ideologiyasına çevirmiş, dövlətçiliyimizin xilaskarı, dünya azərbaycanlılarına layiq olduqları ucalıqların hədəflərini müəyyən etmiş Heydər Əliyevin timsalında Azərbaycan siyasəti parlaq BAYRAQDAR LİDER tipinə şahidlik etmişdir. Məhz buna görə də biz dövlətimizin xilaskarı olan Heydər Əliyevi ÜMUMMİLLİ LİDER olaraq qəbul edirik. Adətən bayraqdar liderləri onların ideallarını yeni dövrə uyğunlaşdıraraq ardıcıl həyata keçirən qurucu liderlər əvəz edir. İlham Əliyev də öz çıxışlarında dəfələrlə "mən xalqın xidmətçisiyəm", "hər bir məmur xalqının xidmətçisi olmalıdır", xalqın üzləşdiyi ən çətin anlarda - zəlzələ, təbii daşqınlar vaxtı "sizə xidmət etməyə gəlmişəm" deyərək, hakimiyyəti xalqa layiqli xidmət vasitəsi kimi dəyərləndirmiş, hökumətin öz fəaliyyəti ilə bağlı mütəmadi olaraq xalq qarşısında hesabat verməsini, görülən işlər barədə ictimaiyyətin hərtərəfli məlumatlandırılmasını da demokratik idarəetmənin zəruri tələbi kimi önə çəkmişdir. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində də bildirir ki, "mən son 15 il ərzində Prezident kimi çalışmışam ki, xalqa ləyaqətlə xidmət edim. Bundan sonra da çalışacağam ki, Azərbaycanın inkişafı, Azərbaycanın gücləndirilməsi, xalqın rifahının artması üçün əlimdən gələni əsirgəməyim. Mənim bir amalım var: güclü Azərbaycan dövləti qurmaq və xalqa ləyaqətlə xidmət etmək".

ABŞ-ın Berkli (Kaliforniya) Universitetinin sosiologiya və hüquq üzrə professoru Filipp Selznik "İdarəçilikdə liderlik. Sosioloji interpretasiya" əsərində qeyd edir ki, qurucu liderlik innovasiyalı ideyaların inkişafı naminə birgə fəaliyyət konsepsiyasına əsaslanan liderlik üslubudur.

"The Servant Leader" (xidmətçi lider) kitabının müəllifləri Kennet Hartli Blanşard (K.Hartley Bllanchard) və Fil Hodces ( Phil Hodges) hesab edirlər ki, liderlik nə idarəçiliyə, nə gücə bağlı deyil; lider başqalarının özləri üçün müəyyən etdiyi baxışlar çərçivəsində daha yaxşı yaşamasına çalışır, onların baxışları isə bütövlükdə cəmiyyətin xoşbəxtliyini nəzərdə tutur. Qurucu lider qısamüddətli deyil, uzunmüddətli hədəflər naminə çalışır, cəmiyyətə davamlı faydası olacaq addımlar atır və bir qayda olaraq uğurlar qazanır, yeni ideyaların, fikirlərin meydana çıxmasına şərait yaradır, ardıcıllarının, seçicilərin, xalqın mənafeləri naminə çalışır, onun hakimiyyətinin əsas qayəsi qurmaq, yaratmaq, insanlara xidmət etmək olur.

Azərbaycanda son on altı ildə reallaşdırılan regionların inkişafı, yoxsulluğun azaldılması, xaricdə təhsil, transmilli enerji və nəqliyyat dəhlizləri, qeyri-neft sektorunun inkişafı və s. sahələrdə qəbul edilib həyata keçilmiş uzunmüddətli proqramlar, icra edilməkdə olan strateji transmilli layihələr məhz qurucu və xidmətçi lider olan İlham Əliyevin xalqa xidmətinin çox uğurlu nümunələridir.

Xalqın mütləq əksəriyyətinin etimadı ilə 2003-cü ildə prezident seçilmiş İlham Əliyev "Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam" deyərkən sadəcə vəd vermirdi, xalqa xidmətin gələcək strategiyasını nümayiş etdirirdi.

Azərbaycana rəhbərlik etdiyi 16 il ərzində İlham Əliyev bu vədə, bu strateji xəttə sadiq qalaraq dini, etnik, sosial mənsubiyyətindən asılı olmayaraq Azərbaycanın hər bir vətəndaşının Prezidenti oldu. Xalqının maraqları, rifahı, xoşbəxt gələcəyi üçün əzmlə çalışdı, milli mənafelərimizin müdafiəsi üçün beynəlxalq platformalarda ən ağır şərtlər altında belə öz qurucu mübarizəsindən geri çəkilmədi. Dövlətimizin suverenliyi, müstəqilliyi naminə aparılan, reallaşdırılan bütün təşəbbüslərin önündə getdi.

Bu illər ərzində yenilənən Azərbaycanın iqtisadi bazisi köklü surətdə dəyişdi, ölkədə böyük iqtisadi irəliləyişlərə nail olundu. Ötən müddət ərzində iqtisadiyyat 3,4 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə artıb, ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulub, bu, müstəqillik dövründə Azərbaycana qoyulan bütün investisiyaların 93 faizini təşkil edir və onun təxminən yarısı daxili mənbələrin payına düşür. Valyuta ehtiyatlarımız 49 milyard dolları keçib. Ölkədə 2 milyondan çox yeni iş yeri yaradılıb. Bu dövr ərzində maaşlar və pensiyalar 10 dəfəyə qədər artıb. Biznes mühitinin yaxşılaşdırılması ilə bağlı məqsədyönlü siyasət həyata keçirilib, təkcə güzəştli şərtlərlə sahibkarlara verilən kreditlərin məbləği 2 milyard manatı ötüb.

Ardı Səh. 12

# Xalqın xidmətçisi - qurucu Lider

Əvvəli Səh. 11

Ötən 16 il ərzində Azərbaycanın sosial-mədəni və təsərrüfat infrastrukturu başdan-başa yenilənib. Paytaxt küçələrindən tutmuş ən ucqar bölgələrə qədər nəqliyyat şəbəkəsi inkişaf edib. 15 min kilometrdən çox yol çəkilib, 450-yə yaxın körpü inşa olunub. Paytaxtda 4 yeni metro stansiyası istifadəyə verilib, bir neçə stansiyada yenidənqurma işləri həyata keçirilib. Xəzər dənizində ən böyük beynəlxalq dəniz limanı - Ələt Dəniz Ticarət Limanı fəaliyyətə başlayıb. Ölkədə 3100-dən çox məktəb, 650-dən çox tibb müəssisəsi inşa edilib, yaxud əsaslı təmir olunub. İnfrastrukturun yenidən qurulması işi yüzlərlə tarixi binalarda, teatr və muzeylərdə, o cümlədən bütün ali təhsil ocaqlarında həyata keçirilib. Paytaxtda müasir tələbələrə uyğun inşa edilən idman sarayları, stadionlar illərdir əhaliyə xidmət göstərir. Bunlarla yanaşı, respublikanın bütün bölgələrində vətəndaşlara xidmət edən sosial mərkəzlər, Olimpiya İdman kompleksləri istifadəyə verilib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilib, 2006-cı ildə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilib. 2014-cü il sentyabrın 20-də Avropanın enerji təhlükəsizliyinin, həmçinin Azərbaycanın perspektiv inkişafının və iqtisadi maraqlarının təmin edilməsində böyük rol oynayacaq Cənub Qaz Dəhlizinin təməli qoyulub. 2018-ci il mayın 29-da Bakıda Cənub Qaz Dəhlizinin, həmin il iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP-ın rəsmi açılış mərasimi keçirilib. Prezident İlham Əliyevin təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülüb. Respublikada 7 hava limanı yenidən qurularaq istifadəyə verilib. Bakının Heydər Əliyev Beynəlxalq Aeroportu dünyanın "5 ulduz"lu 9 əsas hava limanı sırasına daxil olub. Beləliklə, ölkəmiz nəhəng enerji və nəqliyyat qovşağına çevrilmişdir. Azərbaycan artıq dünyada sayı məhdud olan kosmik ölkələr sırasına qoşulub.

Dövlətimizin başçısı İlham Əliyev hakimiyyətinin ilk illərindən yerin təkindəki "qara qızıl"ı yerin üstündəki milli sərvətə - insan kapitalına çevirməyi hədəfləyən ciddi proqramlar qəbul edib və həmin proqramlar uğurla icra olunmaqdadır.

Azərbaycan 2008-ci və 2015-ci illərin dünya böhranından minimal itkilərlə çıxa bilib, bu böhranlar zamanı əhalinin iqtisadi kataklizmlərə həssas, liberal iqtisadiyyata çətin uyğunlaşan qruplarının müdafiəsi üçün ciddi addımlar atılıb. Son bir il ərzində həmin addımların ardıcıl olaraq xalqda, cəmiyyətdə hansı ruh yüksəkliyi yaratdığını, cəmiyyətin İlham Əliyevin ətrafında necə konsolidasiya olduğunu, xalq-dövlət vəhdətinin necə gücləndiyini hər kəs müşahidə edir. Bir zamanlar hiperinflyasiya girdabında olan Azərbaycan bu gün daha böyük fəlakətlər vəd edən, iqtisadi kollaps təhlükəsi yaradan ümumdünya böhranlarından nəinki şərəflə çıxmış, həm də aztəminatlı təbəqəni qorumaq, cəmiyyətin orta sinfinin genişlənməsi yönündə uğurlu tədbirlər həyat keçirmişdir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan sadəcə xarici sərmayələr üçün cəlbedici ölkə deyil, özü də yaxın ölkələrə və Avropa dövlətlərinə sərmayə qoyur, transmilli nəqliyyat və enerji layihələrinin təşəbbüskarı, sərmayəçisi kimi çıxış edir. Azərbaycanın qardaş Türkiyədə rekord məbləğdə - 10 milyard dollar investisiya qoyuluşu nəzərdə tutulan layihələrdə həlledici söz sahibi olması qürurverici reallıqdır. "Müxalifətçilik missiyası və Azərbaycanın milli maraqları" adlı bir az əvvəl dərc edilmiş yazımda son 16 ilin iqtisadi-sosial uğurları haqqında geniş bəhs edildiyindən bu göstəricilərin üzərində təkrarən ətraflı dayanmaq istəmirəm. Sadəcə qeyd etmək istərdim ki, qazanılmış bütün bu uğurlar, nailiyyətlər sözün mütləq mənasında tarixi xidmət sayılmalıdır.

Prezident İlham Əliyev milli-mənəvi dəyərlərin qorunmasına, mədəniyyətin və incəsənətin inkişafına konseptual yanaşma nümayiş etdirir və öz rəhbər qayğısını əsirgəmir. Bu il martın 1-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşü göstərilən qayğının daha bir əyani təzahürü idi.

Beləliklə, İlham Əliyevi mənsub olduğu xalqın və dövlətin liderinə çevirmiş əsas fərdi keyfiyyətlər üzərində fikirlərimi cəmləşdirmək istəyirəm.

İlham Əliyev həddən artıq sədaqətli insandır; o öz əqidəsinə, inandığı işə, xalqına, dövlətinə, partiyasına, qəbul etdiyi ideyalara, Ümummilli Lider tərəfindən ona əmanət edilmiş siyasi irsə, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə həmişə sədaqət nümayiş etdirib. Öz məsləkindən, amallarından, davamçısı olduğu siyasi kursdan zərrə qədər geri çəkilməyib. Onun Prezident kimi həyata keçirdiyi bütün işlər Ümummilli Liderin ideyaları, Azərbaycan xalqının əsas maraq və mənafeləri üzərində qurulub.

İlham Əliyev prezidentlik dövründə həmişə qlobal və sistemli düşüncə tərzinə malik olduğunu nümayiş etdirib. Həm ölkə daxilində gördüyü işlər, həm də yürütdüyü xarici siyasət, onun təşəbbüsü ilə gerçəkləşən əksər əməkdaşlıq platformaları, həyata vəsiqə alan beynəlxalq və regional layihələr qarşıdan gələn on illər, yüz illər sonra da Azərbaycana, Azərbaycan vətəndaşlarına fayda gətirəcək, dövlətimizin qüdrətlənməsinə xidmət edəcəkdir.

İlham Əliyev zəngin idarəçilik təcrübəsinə malik, dövlət və xalq üçün aydın hədəflər müəyyən edən, o hədəflərə nail olmaq üçün ciddi siyasi iradə nümayiş etdirən, çevik qərarlar qəbul edə bilən, xalqı səfərbər edərək dinamik və ardıcıl fəaliyyət göstərən, bacarıqlı təşkilatçı, aydın təfəkkürlü rəhbər, məqsədyönlü və novator siyasətçi, uzaqgörən siyasi liderdir. Onun yüksək intellektual potensialı, geniş təfəkkürü və dövlət idarəçiliyi sahəsində çoxillik təcrübəsi dünyanın sürətlə dəyişən reallıqları şəraitində çevik və optimal qərarlar qəbul etməyə imkan verir.

Dünyanın bir çox ölkələrində neft ehtiyatları var, amma karbohidrogen ehtiyatları ilə zəngin olan bütün ölkələr bu zənginlikdən öz ölkəsindəki yoxsulluğu azaltmaq, ölkəni inkişaf etdirmək, insan kapitalı yetişdirmək naminə istifadə edə bilməyib. Neft bəzən onun sahibi olan ölkələrə dağıntı, fəlakət və vətəndaş müharibəsi gətirir. Azərbaycan isə neft amilindən istifadə edərək özünün təhlükəsizliyini, inkişafını, vətəndaş məmnunluğunu təmin edib.

İlham Əliyev olduqca praqmatik və realist siyasi liderdir. O, həyata keçirdiyi siyasətin nəticələrini əvvəlcədən hesablayır, fəaliyyətinin aydın konturlarını cızır. Azərbaycan dövləti qısa və uzunmüddətli proqramlarla idarə olunan, proqnozlaşdırıla bilən bir siyasət yürüdür. İlham Əliyev müəyyən etdiyi hədəfləri, verdiyi vədləri proqramlaşdırıb həyata keçirir. Formalizm, populizm, qeyri-real vədlər, cari, situativ hədəflər naminə dövlətin enerjisinin sərf edilməsi, gündəlik siyasi tələblər haqqında düşünmək İlham Əliyev idarəçiliyinə yad xüsusiyyətlərdir. Dövlətimizin başçısı öz çıxışlarında populist vədlərin, volyuntarist qərarların regionumuzdakı bəzi ölkələrin nümunəsində necə mənfi fəsadlar verməsini daim qeyd edir. Beləliklə, İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasət əhalinin rifah halının daim yüksəldilməsinə hesablanmışdır.

İlham Əliyev olduqca qətiyyətli və güclü siyasi iradəsi olan liderdir. O, Azərbaycan naminə planlaşdırdığı siyasəti, proqram və layihələri həyata keçirmək üçün böyük əzm, titanik iradə nümayiş etdirir, bəzən qeyri-mümkün görünən ideyaları gerçəyə çevirməyi bacarır. Onun rəhbərliyi ilə icra olunan strateji kurs Azərbaycanın beynəlxalq nüfuzunun və rolunun durmadan yüksəldilməsinə yönəlib.

Prezident İlham Əliyevin liderlik keyfiyyətləri - dərin zəkası, böyük erudisiyası, qlobal düşüncəsi, intellekti, çevik qərar qəbul etmək bacarığı müasir dünya nizamında Azərbaycanın yerini, nüfuzunu, çəkisini müəyyən edir. İlham Əliyevin təşəbbüsləri, reallaşdırdığı proqram və layihələr ölkəyə xarici investisiyaların cəlb edilməsi üçün ciddi zəmin yaradıb. Dünyada siyasi və iqtisadi vəziyyətin heç də ürəkaçan olmadığı indiki zamanda Azərbaycan davamlı tərəqqi nümayiş etdirir.

Yüksək peşəkarlıq və diplomatik məharət İlham Əliyevin siyasi karyerasındakı əsas fərqləndirici xüsusiyyətlərdən biridir. Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında və MDB dövlət başçılarının Aşqabad toplantısında səsləndirdiyi beynəlxalq hüquqa əsaslanan sərt, qətiyyətli və məntiqli çıxışlar bir lider olaraq İlham Əliyevin diplomatik məharətinin göstəricisi sayıla bilər. Prezidentin öz dili ilə ifadə etsək: "bu gün regionla bağlı elə bir məsələ yoxdur ki, o məsələdə Azərbaycanın rəyi, mövqeyi, rolu nəzərə alınmasın".

Dünyada elə liderlər var ki, yalnız idarə etdiyi dövlətin qüdrətindən, fövqəl gücündən çıxış edərək, daim beynəlxalq təhlükəsizliyi təhdid altında saxlayır, beynəlxalq ədaləti öz ölkəsinin, bəzən də ona yaxın olan bu və ya digər transmilli qrupların xeyrinə pozmaqdan çəkinmir. Lakin elə liderlər də var ki, idarə etdiyi ölkənin iqtisadi, hərbi, coğrafi və ya demoqrafik resurslarından asılı olmayaraq öz liderlik keyfiyyətləri, siyasi əzmi və qətiyyəti ilə dünyanın ədalət tərəzisinin şərin lehinə əyilməsinin qarşısını alır, daha ədalətli qərarların qəbul edilməsinə nail olur. İlham Əliyev məhz belə liderlərdəndir. Ərazicə və əhali resurslarına görə kiçik olan Azərbaycan İlham Əliyevin siyasətinin gücüylə hazırda bütün dünyada öz maraqlarını təmin etməyi bacarır. Onun səyləri, uğurlu diplomatik kursu sayəsində, demək olar ki, bütün beynəlxalq təşkilatlar Azərbaycanın haqq işini müdafiə edən qərar və qətnamələr qəbul etmişdir. Bəzən onun qətiyyətli addımları opponentlər tərəfindən ciddi riskli mövqe kimi dəyərləndirilir. Məsələn, Türkiyə ilə Ermənistan arasında Sürix protokolları ilə bağlı İlham Əliyevin nümayiş etdirdiyi qətiyyətli mövqeyin hədəfinə çatmayacağı iddia olunurdu, çünki o protokolların arxasında həm ABŞ, həm Rusiya, həm də Avropa İttifaqının müəyyən dairələri dayanırdı. Lakin İlham Əliyev Türkiyə elitasının, Türkiyə ictimaiyyətinin rəyini düzgün dəyərləndirdiyindən, Ermənistan rəhbərliyinin kiçik bir bəhanə ilə sazişdən geri çəkilməyə hazır olduğunu hesablaya bildiyindən nümayiş etdirdiyi qətiyyətli mövqe həm də olduqca rasional, soyuqqanlı hesablamalara söykənirdi.

Qeyd etmək yerinə düşər ki, belə uzaqgörənlik, yüksək siyasi fəhm bacarığı Prezident İlham Əliyevə Ümummilli Liderdən miras qalmışdır. Vaxtilə, onun BTC haqda qərarını istər ölkə daxilindəki, istərsə də xaricdəki opponentlər kəskin tənqid edirdilər. Lakin zaman Ümummilli Liderin nə qədər haqlı olduğunu ortaya çıxardı. Bu gün Azərbaycanı nəqliyyat-tranzit mərkəzinə, Avropanın əsas alternativ enerji mənbəyinə çevirən, Türkiyə-Azərbaycan dostluğunu "filoloji romantika"dan əsası Heydər Əliyev zamanında qoyulmuş, bu gün isə BTC, BTQ, TAP, TANAP, "Petkim" və s. layihələrlə real iqtisadi zəmin üzərində "bərkimiş tərəfdaşlığa" çevirən İlham Əliyev siyasətidir.

İlham Əliyev islahatçı, novator liderdir. O, həyatımızın hər bir sahəsində - təhsildə, iqtisadiyyatda, kənd təsərrüfatında, elmdə, mədəniyyətdə, şəhərsalmada, Azərbaycanın xarici siyasətində yenilikçi, islahatçı yanaşma tətbiq edir. Dünyada baş verən dəyişikliklərin, cərəyan edən proseslərin məntiqindən çıxış edərək Azərbaycanın davamlı inkişafını, sabitliyin qorunmasını təmin edən qərarlar qəbul edərək həyata keçirir.

Dünya praktikasından bilirik ki, aparılan islahatlar bir çox hallarda sosial və siyasi gərginliklərlə müşayiət olunur. Bunun fəsadlarını bəzi qonşu ölkələrdə, eləcə də Avropada müşahidə edirik. Azərbaycanda siyasi və iqtisadi islahatlar əhalinin, xüsusən aztəminatlı təbəqənin mənafeləri nəzərə alınmaqla həyata keçirilir, vergi islahatlarında, qiymət və tarif siyasətində bu təbəqənin xeyrinə differensial yanaşma tətbiq edilir.

İlham Əliyev yüksək siyasi mədəniyyətə malik, hakimiyyətin əxlaqını nümayiş etdirən humanist bir liderdir. Prezident olaraq ilk çıxışlarında qeyd etdiyi kimi, aradan keçən müddət ərzində "hər bir azərbaycanlının prezidenti" olmağı bacarmış, hər zaman siyasi rəqiblərinə qarşı yüksək əxlaqi davranış sərgiləmiş, siyasi mübarizənin əxlaq çərçivəsində aparılmasının tərəfdarı olmuşdur. Prezident seçkiləri zamanı siyasi rəqiblərinə üstün imkanlar təmin etmək üçün hətta seçkiqabağı təbliğatdan da imtina etmişdir. Bu gün bəlli mərkəzlərin təhriki ilə həm Azərbaycanın bəzi siyasi müxalif qüvvələri, həm xaricdə yaşayan Azərbaycan əsilli antidövlət qrupları, həm də xarici nəşrlər vasitəsilə aparılan qaralama, şər, böhtan kampaniyası qarşısında İlham Əliyevin nə qədər yüksək ləyaqətlə və təmkinlə davrandığını hamı görür. Onun şəhid ailələri, təbii fəlakətdən əziyyət çəkən vətəndaşlarla görüşlərdə nümayiş etdirdiyi humanist davranış lider-xalq əlaqələrinin çox gözəl bir nümunəsidir.

Belə yüksək siyasi mədəniyyət Azərbaycan dövlətinin qonşularla münasibətlərində də həmişə özünü büruzə verib. Bu və ya digər təşviq və təzyiqlərə baxmayaraq, indiyə qədər Azərbaycan hər hansı bir dövlətə qarşı platsdarm rolu oynamamışdır. Ermənistanda baş verən son hakimiyyət dəyişiklikləri və dövlət aparatının iflic olduğu məqamlarda belə, Azərbaycan tərəfi fürsətcil davranışdan yayınmışdır. Nəticədə bu gün Azərbaycan regionda sülh, əməkdaşlıq və dialoq platforması kimi tanınır, beynəlxalq etimadın artmasına öz töhfələrini verir. 2017-ci ildən etibarən Bakıda ABŞ və Rusiya, NATO və Rusiya hərbi rəhbərliklərinin görüşlərinin keçirilməsi ənənəvi hal almışdır, Rusiya ilə Türkiyə arasında gərginliyin azaldılmasına Azərbaycanın verdiyi dəstək artıq hər iki ölkənin müxtəlif səviyyəli siyasətçiləri tərəfindən dilə gətirilmişdir. İlham Əliyevin siyasi iradəsi təkcə Azərbaycanı sabitlik, tərəqqi adasına, regional cazibə mərkəzinə çevirməmişdir, bu gün Azərbaycan həm də bölgədə sülhün, asayişin, bərabərhüquqlu tərəfdaşlığın qarantıdır. Onun dünya miqyasında yürütdüyü uzaqgörən siyasət, Azərbaycan xalqının maraq və mənafelərini qətiyyətlə müdafiə etməsi ölkəmizi regionda və beynəlxalq aləmdə mühüm aktora çevirmişdir. Azərbaycanı daxildən təhdid edən heç bir narahatedici məsələ qalmamışdır, dövlətimizin ətrafında formalaşmış xoşməramlı mühit, yürüdülən komplimentar siyasət isə xaricdən gələn təhdidləri önləməyə imkan verir.

İlham Əliyev həddindən artıq humanist və insansevər siyasətçidir. Onun siyasətinin təməlində insan, vətəndaş amili, insanların firavan, təhlükəsiz həyatı dayanır. İlham Əliyev insanları sevir, insanlara xidmət etməkdən zövq alır. Ümumbəşəri ədalətin, dünyada sülhün, təhlükəsizliyin təmin olunması üçün gərgin mübarizə aparır. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü və sədrliyi dövründə qaldırdığı məsələlər, onun təşəbbüsü ilə beynəlxalq qurumlarda qəbul olunmuş qətnamələr, başladılmış "Bakı prosesi", Bakını "humanitar Davos" kimi tanıdan çoxsaylı beynəlxalq təşəbbüslər dövlətimizi beynəlxalq dialoqun, əməkdaşlığın və tərəfdaşlığın, sülhün və təhlükəsizliyin əsas müdafiəçilərindən birinə çevirmişdir. 2019-2022-ci illərdə dünyanın 120 ölkəsinin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik edərkən də Azərbaycan bu siyasətini davam etdirəcək.

Prezident İlham Əliyev bir siyasi lider və dövlət başçısı olaraq opponentlərinin əksər hallarda qərəzli və əsassız səciyyə daşıyan reaksiyalarına vaxt itirmir, ancaq milli hədəflərə yönəlmiş strategiyasını maksimum effektlə gerçəkləşdirmək üçün çalışır, bu və ya digər addımların zamanlamasını dəqiq hesablamalarla həyata keçirir. Kreativ-qurucu liderliyin əsas xüsusiyyətlərindən biri də elə budur.

Prezident İlham Əliyevin regionların inkişafı, gənclərin təhsili, insan kapitalına dövlət sərmayəsi qoyması, vətəndaşın sosial haqlarını, sosial müdafiəsini önə çəkməsi, onların sağlamlığının müdafiəsi ilə bağlı konseptual siyasət, milli mənəvi dəyərlərin qorunması, yeni nəsillərin öz tarixi irsinə sədaqət ruhunda böyüdülməsinə xüsusi diqqət yetirməsi, Azərbaycanın işğalçı Ermənistan istisna olmaqla bütün qonşu ölkələrlə qarşılıqlı faydalı əlaqələr qurması Prezidentin uzaqgörən, müdrik, peşəkar siyasətçi xüsusiyyətini qabarıq şəkildə nümayiş etdirir.

Prezident İlham Əliyevin siyasəti xalq tərəfindən geniş dəstəyə malikdir. Yerli və ayrı-ayrı xarici qurumlar tərəfindən aparılan monitorinqlər, keçirilən rəy sorğuları bu dəstəyin mövcudluğunu təsdiq edir. Ötənilki prezident seçkilərinin nəticələri, eləcə də bu il Fransanın nüfuzlu "Opinion Way" şirkətinin və Strateji Tədqiqatlar Mərkəzinin apardığı rəy sorğularının nəticələri xalqın İlham Əliyev siyasətinə yüksək etimadının nümayişi oldu. Davos İqtisadi Forumunun apardığı sorğuya əsasən, "siyasətçilərə ictimai etimad" adlanan kateqoriyada Azərbaycan dünyada 20-ci yeri tutur. Bu, İlham Əliyevin siyasətinə xalqın böyük etimadının beynəlxalq etirafı kimi qəbul edilməlidir.

Əminəm ki, siyasi kursunun varisi olduğu ümummilli lider Heydər Əliyev kimi İlham Əliyevin şəxsiyyəti, eləcə də xalqa, dövlətə xidmətə, onun təsisatlarının təkmilləşdirilməsinə, iqtisadiyyatın inkişafı və sosial rifahın təmin olunmasına həsr edilmiş fəaliyyəti elmi-politoloji, tarixi-fəlsəfi araşdırmaların obyektinə çevriləcək, dərindən tədqiq olunacaq. Onu xarakterizə edən liderlik xüsusiyyətləri öyrəniləcək və gənc nəslə çatdırılacaq.

*Əli Həsənov*
*tarix elmləri doktoru, professor*

# "Hazırda qeyri-neft sektorunun inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir"

*Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri İnam Kərimovun yap.org.az-a müsahibəsi*

***- İnam müəllim, Azərbaycanda aqrar sahənin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri elan olunub.***



- Hazırda qeyri-neft sektorunun inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində həyata keçirilən islahatlar qısa müddətdə özünün müsbət nəticələrini göstərib. Aparılan məqsədyönlü islahatlar nəticəsində digər sahələr kimi aqrar sahə də özünün dinamik inkişafı ilə mövcud çağırışlara cavab verərək keyfiyyətcə yeni mərhələyə daxil olub. Dövlət başçısının qəbul etdiyi qərarlar sayəsində aqrar sahənin inkişafı ilə bağlı işlər görülür, bu sahəyə dövlət dəstəyi gücləndirilir.

Ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında iştirak edən, əhalinin davamlı olaraq ərzaqla təmin olunması missiyasını üzərinə götürən fermerlər də dövlətin xüsusi diqqət və qayğısı ilə himayə olunublar.

Azərbaycan iqtisadiyyatının neftdən asılılığının azaldılması, qeyri-neft sektorunun inkişafı, yüksək iqtisadi artımın təmin olunması həyata keçirilən siyasətin əsas prioritetləridir. Bu istiqamətdə kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi, ekosistemin qorunması, məhsuldarlığın artırılması, torpaq və su resurslarından daha rasional istifadə edilməsi qarşımızda duran əsas vəzifələrdən biridir.

***- Kənd təsərrüfatı innovasiyaların tətbiqinə daha uyğun sahələrdən biri sayılır. Azərbaycanda bu istiqamətdə hansı işlər həyata keçirilir?***

- Ən vacib prioritet istiqamətlərdən biri də sözsüz ki, aqrar sahədə innovasiyaların daha geniş tətbiqinə nail olunmasıdır. Aqrar innovasiyalar hər zaman bütün dünyada ərzaq təhlükəsizliyinin təmin olunması üçün ən böyük alət sayılıb. Çünki, innovasiyalar məhsuldarlığı dəfələrlə artırır, torpaq və su resurslarından daha səmərəli istifadə olunur, məhsulun maya dəyəri azalır, fermerlər daha çox gəlir əldə edirlər. Ötən müddətdə imza atdığımız ən böyük innovasiyalar Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin tətbiqi, kənd təsərrüfatında dronlardan istifadə, zərərvericilərə qarşı müasir bioloji mübarizənin təşkili, biotexnologiya laboratoriyalarında virussuz toxum və ting yetişdirilməsi, əkin sahələrinin koordinatlarının və sahədə hansı məhsulun əkilməsinin "Azərkosmos" vasitəsilə müəyyənləşməsidir. Bu gün ölkəmizdə Çin və türk texnologiyası əsasında pambıq becərilməsi həyata keçirilir. Aqrar sahəyə innovasiyaların tətbiqi, innovativ təşəbbüslərin dəstəklənməsi davam edəcək və Azərbaycan aqrar sahədə innovasiyaların daha çox tətbiq olunduğu ölkələrdən birinə çevriləcək.

***- Ölkəmizdə aqrar islahatlar bu il də davam etdirilib. Bu islahatlardan ən mühümü aqrar sahədə yeni subsidiya mexanizminin yaradılmasıdır. Bu mexanizm fermerlərin sosial rifah halının yaxşılaşmasına necə təsir göstərəcək?***

- Cənab Prezident tərəfindən iyunun 27-də imzalanmış "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" Fərman kənd təsərrüfatında dayanıqlı inkişafı təmin edəcək. Bu Fərmanın məqsədi aqrar sahədə tətbiq edilən dəstək tədbirləri ilə bağlı yeni mexanizmin formalaşdırılması, bu sahədə hesabatlılığın, şəffaflığın və büdcə vəsaitlərindən səmərəli istifadənin təmin edilməsi, müraciətlərin sadələşdirilməsi və elektronlaşdırılmasıdır. Bildiyiniz kimi, 2020-ci ildən başlayaraq aqrar subsidiyalar elektron hökumət vasitəsilə veriləcək. Bununla əlaqədar ilin əvvəlindən Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin tətbiqinə start verilib. EKTİS Kənd Təsərrüfatı Nazirliyinin öz fəaliyyətində əsas götürdüyü fermerlərə yaxınlıq, şəffaf və səmərəli idarəetmə, innovasiyaların tətbiqi prinsiplərini özündə birləşdirən ən böyük innovativ təşəbbüslərdən biridir. Bu təşəbbüsün reallaşması aqrar subsidiyaların verilməsində şəffaflığı təmin edəcək, kağız sənəd dövriyyəsini aradan qaldıracaq, fermerlərin dövlət dəstəyindən yararlanmasında insan faktorunu minimuma endirəcək. EKTİS-in tətbiqi nəticəsində subsidiyalar əvvəlki illərdən fərqli olaraq fermerlərə ilin sonunda deyil, əvvəlində veriləcək. Bununla da fermerlər ilin əvvəlində təsərrüfat xərclərinin bir hissəsini qarşılamaq imkanı əldə edəcəklər.

Artıq Cənab Prezidentin imzaladığı Fərmanın icrası ilə əlaqədar Aqrar Subsidiya Şurası yaradılıb. Yeni mexanizmə əsasən, subsidiyalar əkin, məhsul və toxum subsidiyası olaraq üç kateqoriya üzrə qruplaşdırılıb. Şura 2020-ci il üzrə bitkiçilik sahəsində bitkilər və regionlara görə əkin, məhsul və toxum əmsallarını, toxum və ting kvotalarını və əkin ehtiyaclarını müəyyən edib. Gələn ildən fermerlər subsidiyaları məhz Aqrar Subsidiya Şurasının qəbul etdiyi əmsallar üzrə alacaqlar. Misal olaraq qeyd edə bilərəm ki, əvvəllər fermerlər yalnız tədarük məntəqələrinə təhvil verdikləri pambığın çəkisinə görə subsidiya alırdısa, gələn ildən pambıq becərilməsinə görə həm əkin, həm məhsul subsidiyası alacaqlar. Bu, pambıqçılığın inkişafına dövlət dəstəyinin genişləndirilməsi istiqamətində atılan mühüm addımlardan biridir.

Dövlət kənd təsərrüfatı məhsullarının ixrac potensialını gücləndirmək məqsədilə intensiv bağların salınmasında da maraqlıdır. Aqrar Subsidiya Şurası bu məqsədlə intensiv meyvə bağlarına veriləcək subsidiyalar üçün ən yüksək əmsal müəyyənləşdirib. Qərara əsasən, 2019-cu ildən başlayaraq, intensiv bağın salındığı ilk 4 il ərzində fermerə hər hektara görə 800 manat subsidiya ödəniləcək. Qərzəkli meyvə bağları üçün bu rəqəm 400 manat, üzüm bağları üçün 600 manatdır. Müəyyənləşən əmsallar fermerlərin xərclərinin böyük bir hissəsinin dövlət tərəfindən qarşılanmasını təmin edir, eyni zamanda dövlət subsidiya mexanizmi vasitəsilə konkret sahələrin inkişafını stimullaşdırır. Göründüyü kimi, təkcə EKTİS-in tətbiqi və aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması fermerlərə dövlət dəstəyini kifayət qədər gücləndirir.

Bir məqama toxunmaq istəyirəm. Subsidiyaların elektron hökumət üzərindən verilməsi EKTİS-in yalnız bir funksiyasıdır. Bu sistem fermerlərə digər üstünlüklər də qazandırır. Fermerlərimiz zaman itkisinə yol vermədən, mobil telefon, planşet və masaüstü kompüter vasitəsilə sistemə daxil olub, ehtiyac duyduqları aqrar xidmətləri sifariş edə biləcəklər.

Artıq ölkə üzrə 435 mindən artıq fermer EKTİS-də qeydiyyatdan keçərək özlərinə şəxsi kabinet yaradıblar. İlin sonunda isə EKTİS-in tətbiqi ilə əlaqədar növbəti mərhələyə start verilib, sistemdə qeydiyyatdan keçmiş fermerlər öz payızlıq əkinlərini bəyan ediblər. Hazırda əkinlərin bəyan edilməsi prosesi davam edir, 280 mindən artıq fermer öz əkinlərini bəyan etmə prosesini yekunlaşdırıblar.

***- Gələn ildən Azərbaycanda aqrar sığorta sisteminin də tətbiqinə başlanılacaq. Ölkəmiz üçün yeni olan bu sistemin hansı özəllikləri var?***

- Bu il Milli Məclis tərəfindən "Aqrar sığorta haqqında" qanun qəbul olunub, Nazirlər Kabineti Aqrar Sığorta Fondunun Nizamnaməsini və "Aqrar sığorta predmetinin tərkibini" təsdiqləyib. Bununla da ölkəmizdə ilk dəfə aqrar sığortanın geniş miqyaslı tətbiqi üçün hüquqi baza formalaşıb. Azərbaycanda aqrart sığorta mexanizmi Türkiyənin TARSİM modelinin təcrübəsi əsasında qurulur. Bu model dövlət-özəl sektor əməkdaşlığına əsaslanır. Dövlət aqrar sığorta orqanı vasitəsilə sığorta risklərini öz üzərinə götürəcək, bir hissəsini isə təkrar sığorta vasitəsilə yenidən özəl sektora ötürəcək. Aqrar Sığorta Fondu Nazirlər Kabinetinin "Aqrar sığorta predmetinin tərkibi" haqqında qərarında göstərilmiş məhsullar üzrə sığorta prosesində iştirak edəcək və riskin 50 faizini öz üzərinə götürəcək. Məhsulların Aqrar Sığorta Fondu ilə özəl sığorta şirkətləri tərəfindən birgə sığortalanması investisiya risklərini azaldacaq, fermerlərə dövlət dəstəyini gücləndirəcək, məşğulluğa müsbət təsir edəcək, ərzaq təhlükəsizliyinə töhfə vermiş olacaq və sığorta bazarını gücləndirəcək. Bu baxımdan aqrar sığorta mexanizminin Azərbaycanda tətbiqinə başlanması kənd təsərrüfatının inkişafını təmin edəcək əsas amillərdən biri kimi qəbul olunmalıdır.

***- Kənd təsərrüfatına dövlət dəstəyi hər il genişlənir. Bu amil iqtisadi göstəricilərə necə təsir göstərir?***

- Dövlət dəstəyinin gücləndiorilməsi sayəsində 2019-cu təsərrüfat ili yüksək nəticələrin əldə olunduğu illərdən biri sayıla bilər. Cari ilin 1 dekabr tarixinə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 7,1%, o cümlədən bitkiçilik məhsullarının istehsalı 11.3%, heyvandarlıq məhsullarının istehsalı isə 3.2% artıb.

Yanvar-noyabr aylarında sahələrdən 3512.4 min ton taxıl yığılıb. Bu əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,9% çoxdur. Qeyd olunan dövrdə ölkə üzrə 2171.5 ton buğda (+6,3%), 1015.5 ton arpa (+7,8%) və 259.4 min ton qarğıdalı (+14,4%) yığılıb.

Cari ildə 643.7 ton barama istehsal edilib ki, bu da keçən illə müqayisədə 25,3% çoxdur. Ümumilikdə barama istehsalı üzrə əldə etdiyimiz göstərici son 21 ilin ən yüksək göstəricisidir. Bundan əlavə, 5.9 min ton tütün yığılıb ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 3.3% çoxdur.

2019-cu ilin yanvar-noyabr aylarında təxminən 993.8 min ton kartof (11.7% çox), 1637.6 min ton tərəvəz (13.2% çox), 1075.8 min ton meyvə və giləmeyvə (7.8% çox), 194.1 min ton üzüm (25.4% çox) istehsal edilib, 911.3 ton yaşıl çay yarpağı (4.9% çox) yığılıb, diri çəkidə ət istehsalı 2.8% artaraq 476.6 min ton, süd istehsalı 2.1% artaraq 1938.7 min ton təşkil edib.

***- İnam müəllim 2019-cu il həm də Azərbaycanda pambıqçılığın inkişafı baxımından ən yaddaqalan illərdən biri sayıla bilər.***

- Bəli, Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu pambıqçılıq ənənələri son illər yüksək templə inkişaf etdirilərək əvvəlki şöhrətini bərpa etməkdədir. 2015-ci ildən sonrakı dövr ərzində pambıq istehsalı 8,2 dəfə artıb. Bu gündək 100 min hektar sahədən 294 min tondan çox pambıq istehsal olunub və hektardan orta məhsuldarlıq 29,4 sentner təşkil edib. Əkin sahəsi ötən ilə nisbətən 32 min hektar azalsa da, pambıq istehsalı 61 min ton, hektardan orta məhsuldarlıq isə 11,8 sentner artıb.

2018-ci ildə Ağdam, Beyləqan və Zərdab rayonlarında əlavə üç, cari ildə Bərdə rayonunda bir pambıq qəbulu məntəqəsi tikilib, müvafiq avadanlıqlarla təchiz edilib. Mövsüm ərzində bu məntəqələr tərəfindən 8 min ton xam pambıq qəbul olunub. Ucar rayonunda illik istehsal gücü 40 min ton olan pambıq emalı zavodu, saatda 1,5 ton lifsiz pambıq toxum istehsalı gücünə malik zavod istifadəyə verilib, gündəlik 200 ton pambığı çiyidini emal etmək gücünə malik zavodda tamamlanma işləri getməkdədir.

Cənab Prezident qarşımıza istehsalı məhz məhsuldarlığın yüksəldilməsi hesabına artırmaq hədəfi qoymuşdur. Aparılan təhlillər göstərir ki, 2018-ci ildə 30 sentnerdən çox məhsul götürən 3096 fermer vardısa, 2019-cu ildə bu rəqəm iki dəfədən çox artaraq 7110 fermer təşkil edib. 7110 fermer tərəfindən yığılmış pambıq ümumi istehsalın 39 faizini təşkil edir. Bu məhsulun 29,5 min hektar sahədən yığıldığını nəzərə alsaq, hektardan orta məhsuldarlıq 39 sentnerdir. 2019-cu ildə 50 sentnerdən artıq məhsul götürən fermerlərin sayı 953 olub. 2018-ci illə müqayisədə hesabat ilində fermerlərin əldə etdikləri gəlirlərin ümumi həcmi 45 milyon manatdan çox artıb.

Eyni zamanda pambıqçılığın inkişafında müasir texnologiyalardan istifadə vacib sayılır. Bu il Ucar rayonunda Çin texnologiyası və Beyləqan rayonunda türk texnologiyası əsasında pambıq istehsalı üzrə pilot layihələr həyata keçirilib. Çin texnologiyası ilə hər hektardan 60 sentner, türk texnologiyası ilə isə 58 sentner xam pambıq istehsal olunub. Gələn il pambıqçılıqla məşğul olan bütün şirkətlər yeni texnologiyaların tətbiqini Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə genişləndirəcəklər.

Cənab Prezident dekabrın 19-da pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlərlə bağlı müşavirədə qarşımıza yeni hədəflər qoyub və bu hədəflərə nail olmaq üçün tədbirlər davam etdiriləcək.

***- 2019-cu ildə aqrar sektorun infrastrukturunun yenidən qurulması istiqamətində görülən işlər barədə nə deyə bilərsiniz?***

- Bu il Cənab Prezidentin iştirakı ilə Bakının Sabunçu rayonunun Pirşağı qəsəbəsində Kənd Təsərrüfatı Nazirliyinin əsaslı şəkildə yenidən qurulan Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun və "Kartof və tərəvəz toxumları istehsalı" kompleksinin açılışı olub. İnstitutun və yeni kompleksin məqsədi kənd təsərrüfatı fəaliyyətlərinin elektronlaşdırılmasını, məlumatların elektron qaydada tərtib edilərək araşdırılmasını təşkil etməkdən ibarətdir. İnstitut və onun tabeli qurumları tərəfindən tərəvəz sortlarının ilkin toxumçuluğunun elmi əsaslarla işlənib hazırlanması, superelit və elit toxum istehsalına elmi-metodiki kömək göstərilməsi, müxtəlif çeşidli tərəvəz növlərinin emal texnologiyasının öyrənilməsi, elmi nailiyyətlərin və qabaqcıl təcrübənin istehsalatda tətbiqinə metodiki rəhbərlik həyata keçirilir. İstixana və açıq sahə şəraitində tərəvəz, bostan və kartof bitkilərinin yeni sort və hibridlərinin yaradılması, onların toxumçuluğunun standartlara uyğun təşkili nəzərdə tutulur.

Bundan başqa, 2019-cu ildə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Respublika ərazisində toxumçuluğun inkişaf etdirilməsi məqsədilə 5 rayonda Dənli Bitki Toxumlarının Emalı Zavodunun tikintisi həyata keçirilib. Daha belə bir zavod İsmayıllı rayonunun İvanovka kəndində inşa edilir. Bu zavodların inşası və istifadəyə verilməsi fermerləri yüksək keyfiyyətli, sertifikatlaşdırılmış toxumlarla təmin etməyə imkan verəcək.

Kənd təsərrüfatı İnfrastrukturun müasir standartlara uyğun yenidən qurulması və təkmilləşdirilməsi gələn il də davam etdiriləcək. 2020-ci ildə Ağstafa rayonunda yaradılmış "Dilbaz" atçılıq təsərrüfatı üçün yeni atçılıq kompleksinin inşası başa çatdırılaraq istifadəyə veriləcək. Baytarlıq Elmi-Tədqiqat İnstitutunun inzibati-laboratoriya binasının, Baytarlıq Klinikasının, Göygöl rayonunda yerləşən Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunda iri və xırdabuynuzlu heyvanların seleksiya damazlıq işlərinin aparılması üçün heyvandarlıq kompleksinin tikintisinə başlanılmışdır. Qobustan rayonunda Heyvandarlıq Nümayiş Kompleksinin tikintisi də davam edir və kompleks gələn il istifadəyə veriləcək. Eyni zamanda Şamaxı rayonunda Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun fillokseraya davamlı calaq-üzüm əkin materialının istehsalı üçün calaq kompleksi inşa olunur. İsmayıllı rayonunun Lahıc qəsəbəsində 10 min baş arı ailəsindən ibarət Arıçılıq Kompleksinin inşası nəzərdə tutulur. Azərbaycan Dövlət Aqrar Universitetinin maddi-texniki bazasının yaxşılaşdırılması üçün işlər davam etdirilir. Universitetin yeni tədris korpusunun və Peşə Məktəbinin inşası başa çatmaq üzrədir. Növbəti il müxtəlif təyinatlı sort-sınaq məntəqələrinin də inşa olunaraq istifadəyə verilməsi nəzərdə tutulur.

2020-cu ildə qarşımızda aqrar sahənin dayanıqlı inkişafına ciddi təsir edə biləcək çoxsaylı vəzifələr durur. Qeyd etdiyim kimi, 2020-ci ildə Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin, yeni subsidiya mexanizminin və aqrar sığorta sisteminin tətbiqi istiqamətində mühüm işlər həyata keçiriləcək. Bundan başqa qarşımızda kənd təsərrüfatının bütün sahələrində intensiv inkişafı təmin etmək, məhsuldarlığı, ixrac potensialı yüksək olan kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq kimi vəzifələr var.

Kənd Təsərrüfatı Nazirliyinin kollektivi 2020-ci ildə də Cənab Prezidentin aqrar sahədə qarşımıza qoyduğu vəzifə və öhdəliklərin layiqincə yerinə yetirilməsi üçün bütün imkanlardan istifadə edəcək, verilmiş tapşırıqların icrası yüksək səviyyədə təmin olunacaqdır

# AXP sədri AXCP-Müsavat qarşıdurmasının güclənəcəyi anonsunu verdi

## Pənah Hüseyn: "Problemlər istisna deyil"

***Parlament seçkiləri ərəfəsində müxalifətin radikal qanadında baş verən qarşıdurmalar həm də belə qənaətə gəlməyə əsas verir ki, bu seçkilər düşərgə daxilində gərginliklər yaşadacaq. Daha dəqiq desək, seçkilərə qatılmayacaqlarını bəyan edən AXCP-"Milli Şura" cütlüyü və oradakı "cırtdan" partiyalar seçkilərə gedəcəklərini bəyan edən digər müxalifət partiyalarını, xüsusilə, əzəli düşmənləri hesab edilən Müsavatı "demokratik düşərgəyə" xəyanətdə ittiham edirlər.***



### AXCP sədri Əli Kərimli və onun "Milli Şura"dakı əlaltıları müsavatçıların bostanına daş atmağa başlayıblar

Daha əvvəlki seçkilərdə boykot taktikasının nəticə vermədiyini, əksinə, bu taktikanın partiyalar üçün ciddi fəsadlar yaşatdığını anlayan bir sıra müxalifət partiyaları, əsasən də, Müsavat partiyasının rəhbərliyi, onsuz da, zəif durumda olan təşkilatın daha ağır vəziyyətə düşməməsi üçün, seçkilərə qatılmaq qərarını verib. Bu qərardan sonra isə, AXCP sədri Ə.Kərimli və onun "Milli Şura"dakı əlaltıları müsavatçıların bostanına daş atmağa başlayıblar. Hətta müsavatçıların "Milli Şura"nın sıralarını tərk etdikləri vaxtları da xatırladaraq, onların xəmirlərinin xəyanətlə yoğrulduğunu müxtəlif vasitələrlə bildirirlər. Bu arada, parlament seçkilərinə qatılmaq qərarını vermiş Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn də, istisna etmir ki, qarşıdurmalar şiddətlənəcək, hətta seçkilərə qatılıb-qatılmayan siyasi təşkilatlar arasında savaşlar yaranacaq.

### "AXCP seçkilərdə iştirak etməməklə bağlı qərar qəbul edib, Müsavat partiyası isə seçkilərdə iştirak etməklə bağlı qərar qəbul edib"

Ümumiyyətlə, müxalif partiyaların seçkilərlə bağlı fərqli müansibət sərgilədiyini deyən AXCP sədri bildirib: "Müxalifətdəki partiyalar seçkilərə bağlı fərqli mövqe ortaya qoyub. AXCP seçkilərdə iştirak etməməklə bağlı qərar qəbul edib, Müsavat partiyası isə seçkilərdə iştirak etməklə bağlı qərar qəbul edib. Seçkilərdə iştirakla bağlı bu cür fərqli mövqe müəyyən ayrılıqlara səbəb olur. Bu baxımdan, bu seçkilərin müxalifətdaxili münasibətlərdə müəyyən problemlər yaratması istisna deyil. Çalışmaq lazımdır ki, bu fəsadlar mümkün qədər az olsun".

Fəsadların qarşısının alınması üçün, nə qədər cəhdlər göstərilərsə belə, onların qarşısını almaq qeyri-mümkün görünür. Çünki fakt həm də ondadır ki, uzun illərdir birləşib-ayrılan partiyalar sırasına daxil olan AXCP-Müsavatın barışmaq, bir araya gəlmək, yaxud eyni mövqedən çıxış etmək şansları sıfıra bərabərdir. Bu baxımdan, şiddətli qarşıdurmaların anonsunu verən P.Hüseyn, əslində, doğru nəticə çıxarıb və düşərgədaxili savaşlar istər seçkilər öncəsi, istərsə də seçkilərdən sonra davam edəcək.

**Rövşən RƏSULOV**



## PARÇALANIN Kİ, PARÇALANASINIZ!!!

**RƏFİQƏ**

***Düz 26 ildir ki, bu uğursuz, biabırçı yolu gedən dağıdıcı müxalif düşərgənin "liderləri" ölkədə keçirilən seçki ərəfəsi ya "birlik", ya da "boykot" çağırışları edirlər. Nəticədə, birliyə nail olmaları bir yana qalsın, əksinə, mövcud olan blokları da parçalayıb, külə döndərirlər.***

Tarixə nəzər yetirmək kifayətdir. Hələ 2010-cu ildə keçirilən parlament seçkiləri öncəsi müxalif partiyalar "birləşmək" və seçkilərə birgə getmək barədə danışıqlar aparsalar da, cəmiyyət əks-proseslərin şahidi oldu. 5 il ərzində mövcud olan "Azadlıq" bloku dağıldı. Seçkilərdən sonra bir sıra müxalif partiyalar "İctimai Palata" adı altında birləşməyə cəhd göstərdi. Lakin zaman göstərdi ki, müxalifət birliyə nail olmağı bacarmır. Çünki bu qurum da göstərdi ki, istər prezident seçkilərində vahid namizəd məsələsində razılığın əldə edilməməsi təşkilatdakı vəziyyəti günü-gündən daha da gərginləşdirir, istərsə də parlament və ya bələdiyyə seçkilərində də "mənəm-mənəmlik" partlayış həddinə çatdırır. Həmin partlayışı indi də oyuncaq, ölü qurum "Milli Şura" bələdiyyə seçkilərini "boykot" etməklə, parlament seçkilərinə "namizəd axtarışı" yaşamaqla, bir daha yararsız olduğunu sübut edir.

AXCP-nin satqın və əxlaqsız sədri Əli Kərimli və ölü qurumun ölü rəhbəri, mənəviyyatını qrantlara satan qoca professor Cəmil Həsənli yenə də bələdiyyə seçkilərinin keçirilməsi ilə bağlı açıqlamalarla bağlı faktların çerneli qurumamış öz çirkin əməllərindən əl çəkməyərək bəzi beynəlxalq təşkilatlarla, Azərbaycan xalqının iradəsinə zidd gedən xarici qüvvələrlə əməkdaşlığa başlayıblar. Bu təzə xəbər də deyil. AXCP sədri Ə.Kərimli və onun əlaltısı C.Həsənli bələdiyyə seçkiləri ilə bağlı beynəlxalq təşkilatların seçkinin nəticələrini tanınmamasına çalışdı. Bunun da sifarişi bəlli ünvanlardan gəlmişdi. Lakin xalq saxtakar müxalifətin namizədlərinə etimad göstərmədi və nəticədə, özlərini seçki prosesindən sadəcə təcrid etdilər. İndi də 2020-ci ilin 9 fevralında keçiriləcək parlament seçkilərində də eyni ssenari üzrə hərəkət edib, fiaskoya uğrayacaqlarını indidən yaxşı bilirlər. Görünən isə budur ki, bu seçki ilində müxalifətin heç bir bloku yaranmayacaq, əksinə, olanlar da dağılacaq. Çünki onların heç bir elektoratları yoxdur. Öz partiyaları ola-ola, müxtəlif adlar altında üç adam bir təşkilat yaradır, beş adam bir təşkilat yaradır. Öz partiyalarının adı o qədər hörmətdən düşüb ki, onun adını çəkmək istəmirlər və başqa-başqa təşkilatlarda birləşməyə çalışırlar. Lakin istənilən "birliyin" məqsədi və məramı olmalıdır. Digər tərəfdən isə, həmin adamlar xalqla, insanlarla bağlı olan adamlar olmalıdırlar. Belə bir adam da yoxdur, necə ki, yoxsunuz. Elə yox olasınız! Bir siyasətçinin ki, tərcümeyi-halında öz düşərgəsi ilə bağlı bu qədər qara ləkələr olsun, onun müxalifətin "birliyində" maraqlı və səmimi mövqe tutması, sizcə, mümkündür? Ona görə də, beləleri yox olsun! Çünki Ə.Kərimlinin yanında olmaq, ona inanmaq, güvənmək minalanmış ərazi ilə yol getmək qədər riskli və təhlükəlidir. Çalışın, minaya düşməyin...

Belə yerdə isə, bir sözü demək lap yerinə düşər - parçalananın ki, parçalanasınız! Biz də görək ki, haraya qədər gedirsiniz. Bunu isə zaman tezliklə göstərəcək.

# "Milli Şura" seçkiöncəsi dağılacaq

***Hər bir partiyanın gücü və sosial dayaqları onun seçkidə iştirak etməsi ilə müəyyənləşir. Amma "Milli Şura" və AXCP parlament seçkilərində iştirak etməyəcəklərini bəyan ediblər. Bu, azmış kimi, onlar kütləvi aksiyalara başlayacaqlarını da bəyan edilər. Söhbət etdiyimiz müsahiblərimiz "Milli Şura" və AXCP-nin seçkilərlə bağlı mövqelərinin "Siyasi partiyalar haqqında Qanun"a və siyasi mübarizə metodlarına zidd olduğunu bildirdilər.***



### "Olaylar" qəzetinin baş redaktoru Yunus Oğuz: "AXCP seçkidə iştirak etməyib, aksiya keçirəcəyini bəyan etməsi adama gülməli gəlir"

- "Milli Şura" və AXCP parlament seçkilərində iştirak etməyəcəklərini bəyan etmələri və ardınca kütləvi aksiyalar keçirəcəklərini bildirmələri, uğursuz cəhddən başqa bir şey deyil. İstəsələr belə, aksiya keçirə bilməyəcəklər. Çünki onların xalq tərəfindən dəstəyi yoxdur. Ümumiyyətlə, seçkiöncəsi adları çəkilən qüvvələrin aksiyalar keçirmələrinə dövlət icazə verməyəcəkdir. Çünki seçkilərlə bağlı qeydiyyatdan keçən partiyalar öz tədbirlərini keçirəcəklər. Yəni seçkidə iştirak etməyib, kütləvi aksiyalarda iştirak etmələri adama gülməli gəlir. Bir sözlə, sözügedən qüvvələr özlərini reklam etmək üçün və "biz də varıq" demək üçün, anormal üsullardan istifadə edirlər. Amma onların bu cür hərəkətləri xalq tərəfindən rədd edilir. Yaxşı olardı ki, onlar belə hərəkətlərindən əl çəksinlər.

### Təkamül partiyasının sədri Teyyub Qənioğlu: "Radikallara məxsus olan "söyüş müxalifəti"ni heç kəs dəstəkləmir "

- Mitinq və hər hansı bir tədbir keçirmək siyasi partiyaların konstitusiyon hüququdur. Amma əsas məsələ budur ki, bu mitinqlərdə hansı məsələ müzakirə olunacaq? Əgər adları çəkilən şəxslər, bu seçki ilə bağlı məsələləri müzakirə etmək istəyirlərsə, onda bunlar seçkiyə qatılmalı idilər. Seçkiyə qatılmamaqla, "Milli Şura" adlandırılan qurumun tərkibinə daxil olan insanlar bəri başdan məğlub olacaqlarını başa düşüblər və seçkiyə qatılmaqdan da, ona görə çəkiniblər. Çünki sözügedən qüvvələr, çox yaxşı bilirlər ki, onların xalq tərəfindən dəstəyi yoxdur. Xüsusilə də, radikallara məxsus olan "söyüş müxalifəti"ni heç kəs dəstəkləmir. Ona görə də, adları çəkilən qüvvələr bilirlər ki, seçkiyə qatılacaqlar təqdirdə, fiaskoya uğrayacaqlar. Əgər sözügedən qüvvələr nəyə isə nail olmaq istəyirlərsə, buyursunlar seçkilərdə iştirak edin demokratik qaydada, icazə verilən həddə yığıncaqlarınızı keçirin, seçicilərin dəstəyini qazanın və seçicilərin dəstəyini qazanacağınız təqdirdə, buyurun, Milli Məclisdə təmsil olunun. Yox, əgər bəri başdan məğlubiyyətlərinizi etiraf edirsinizsə, onda belə bir misal var, daldan atılan daş topuğa dəyər. Bu aksiyaları keçirməklə, nə deyəcəksən və kim səni dəstəkləyəcəkdir? Ataların belə bir misalı var, deyir milçək bir şey deyil, amma ürək bulandırır. Yəni adları çəkilən qüvvələr bu cür hərəkətləri ilə ürək bulandırmalarına ehtiyac yoxdur. Onların bu cür hərəkətləri onlara xarici qüvvələr tərəfindən verilən növbəti tapşırıq ola bilər. Çünki Azərbaycanda sabitliyi bəyənməyən qüvvələr var. Amma onların ölkəmizlə bağlı planları baş tutmayacaqdır.

**GÜLYANƏ**

## MİDA: 1400-dək ailə güzəştli mənzilə sahib olub

***Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) ilk layihəsi olan Yasamal Yaşayış Kompleksində bu il oktyabrın 16-sı və 18-də "Elektron hökumət" portalı (www.e-gov.az) üzərindən "Güzəştli mənzil" sistemi vasitəsilə seçilmiş 570 mənzildən 568-nin alqı-satqısı uğurla başa çatdırılıb.***

Agentliyin İctimaiyyətlə əlaqələr sektorundan AZƏRTAC-a bildirilib ki, həmin mənzillərdən 17-si cari ilin oktyabrın 18-də "Güzəştli mənzil" sistemi vasitəsilə gözləmə qaydasında mənzil seçimi etmiş şəxslər tərəfindən əldə edilib. Mənzilə sahib olmuş vətəndaşlardan 146-sı mənzili öz vəsaiti hesabına, 422-si isə güzəştli ipoteka krediti hesabına əldə ediblər. Ümumilikdə isə bu günədək keçirilən 5 satışın nəticəsində 1385 ailə MİDA-nın ilk layihəsi - Yasamal Yaşayış Kompleksində güzəştli mənzilə sahib olub. Güzəştli şərtlərlə əldə edilmiş mənzillərdən 247-si 1 otaqlı, 794-ü 2 otaqlı, 344-ü isə 3 otaqlıdır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi istimə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə vətəndaşlara təhvil verilib. Dekabrın 25-də kompleksdə qalan 248 mənzilin satışı həyata keçiriləcək.

# “Regional İnkişaf” İctimai Birliyinin fəaliyyəti

***“Regional İnkişaf” İctimai Birliyinin fəaliyyətindən bəhs edən film çəkilib. Filmdə RİİB-in yaradılması, regionlarda vətəndaşlarla görüşlər, müraciətlərin qəbulu, müxtəlif sahələri əhatə edən layihələrin həyata keçirilməsi, RİİB-də könüllülük fəaliyyəti ilə bağlı görülən işlər öz əksini tapıb.***

Tədbirdə çıxış edən Böyük Britaniyanın Azərbaycana Birgə Yardım təşkilatının (UAFA Azərbaycan) təsisçisi Qvendolin Börçell “Regional İnkişaf” İctimai Birliyi ilə UAFA Azərbaycanın həyata keçirilən birgə layihələri barədə məlumat verib. Qeyd olunub ki, “Regional İnkişaf” İctimai Birliyi və Böyük Britaniyanın Azərbaycana Birgə Yardım Təşkilatı arasında əməkdaşlıq haqqında imzalanan memorandum çərçivəsində UAFA nümayəndələri Biləsuvar və Cəlilabad rayonlarında 300-dən çox aztəminatlı və sosial dəstəyə ehtiyacı olan ailədə görüşlər keçirib, onlara müxtəlif dövlət qurumlarının xidmətlərindən istifadənin genişləndirilməsi, ailə sahibkarlığının, davamlı kənd təsərrüfatı imkanlarının inkişaf etdirilməsi, müasir metodologiyalardan istifadə etməklə uşaqlara yönəldilmiş səhiyyə, təhsil, habelə, sosial xidmətlər şəbəkəsinin gücləndirilməsi istiqamətində təşkilati və hüquqi yardım göstərib. Qvendolin Börçell birgə layihələrin gələcəkdə də davamında maraqlı olduqlarını qeyd edib.

“Regional İnkişaf” İctimai Birliyinin könüllülərlə iş, layihələr və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Tural Qənbərov konfrans iştirakçılarına RİİB-in gələcəkdəki sosial layihələri barədə məlumat verib. Bildirib ki, RİİB-in turizmin inkişafı sahəsi üzrə layihəsi, əsasən, regionların tarixi və coğrafi potensialını araşdıraraq, turizm sahəsində bir sıra innovativ təklifləri özündə ehtiva edəcək. Bunların sırasında elektron xəritə, elektron məlumat bazası və turizm sahəsində müxtəlif elektron xidmətlər var. Bu çoxmərhələli layihə ölkənin artan turizm potensialına əlavə dəstək verməklə, regionlara səfər edən turistlər üçün faydalı məlumat bazası olacaq. Habelə, region sakinlərinin də bu layihənin imkanlarından yararlanması üçün əlavə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Bununla yanaşı, aztəminatlı ailələrin gəlir əldə etmə imkanlarının genişləndirilməsi, məşğulluğunun təmin edilməsi məqsədilə ailə təsərrüfatlarının inkişafı, inklüziv təhsil layihəsi, fiziki və əqli məhdudiyyətli uşaqların təhsil imkanlarının genişləndirilməsi üzrə layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

Konfransda RİİB könüllüləri adından çıxış edən Gülpəri Kərimli ictimai birliyin gənclərin könüllülük fəaliyyətinə cəlb olunmasına və onların ölkə üzrə şəbəkələşməsinə böyük əhəmiyyət verdiyini, bu məqsədlə müxtəlif layihələr və proqramlar həyata keçirildiyini, bir sıra tədbirlərdə könüllülərin kütləvi iştirakının təmin edildiyini diqqətə çatdırıb. O, qeyd edib ki, həyata keçirilən bütün bu təşəbbüslər gənclərə vətənpərvərlik ruhunun və dövlətçilik ənənələrinin aşılanmasına, könüllülər arasında sosial məsuliyyət hissinin artırılmasına və onların fərdi inkişafına yönəlib.

“Azərbaycan gəncliyi dövlətin diqqət və qayğısını hər zaman hiss edərək, ölkəmizin daha da inkişafında və güclənməsində fəal iştirak edir və dövlətçilik ənənələrini uca tutur. Əmin ola bilərsiniz ki, müstəqil Azərbaycanın gəncləri, “Regional İnkişaf” İctimai Birliyinin könüllüləri olaraq, bundan sonrakı fəaliyyətimizdə də ölkəmizin inkişafı yolunda səylərimizi əsirgəməyəcəyik” deyə Gülpəri Kərimli bildirib.

Tədbirdə çıxış edən Milli Məclisin Gənclər və İdman Komitəsinin sədri Fuad Muradov Prezident İlham Əliyevin rəhbərliyi altında gənclər və idman sahəsində, regionların sosial-iqtisadi inkişafında əldə olunan nailiyyətlərdən danışıb. Fuad Muradov “Regional İnkişaf” İctimai Birliyinin yaradılmasının regionların həyatında mühüm hadisə olduğunu vurğulayıb. RİİB-in regionlarda ictimai nəzarətin həyata keçirilməsində, region sakinləri ilə dövlət və bələdiyyə orqanları arasında dialoqun inkişaf etdirilməsində göstərdiyi təşəbbüslərə diqqət çəkən millət vəkili təşkilatın vətəndaşların sosial problemlərinin araşdırılması və həllinə dəstək istiqamətində göstərdiyi fəaliyyəti Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə fondun gördüyü xoşməramlı işlərin davamı kimi dəyərləndirib.

Konfransda Anar Ələkbərov və Fuad Muradov tərəfindən RİİB-in fəaliyyətində, eləcə də, “Gəncə Marafonu - 2017”də fəal iştirak edən könüllülərə təşəkkürnamələr verilib.

Konfransın ilk hissəsinin sonunda iştirakçılar adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət oxunub. Müraciətdə qeyd edilib ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 2016-cı ilin fevral ayında təsis edilən “Regional İnkişaf” İctimai Birliyinin əsas məqsədi vətəndaş cəmiyyəti quruculuğunda əhəmiyyətli layihələr reallaşdırmaq, dövlət tərəfindən aparılan islahatlar, o cümlədən, regionların inkişafı üzrə həyata keçirilən tədbirlərə hərtərəfli dəstək göstərməkdir.

“Dövlət Proqramlarına dəstək olaraq, “Regional İnkişaf” İctimai Birliyi tərəfindən bölgələrdə elm, təhsil, səhiyyə, mədəniyyət, sosial, idman, ekologiya, İKT və infrastruktur layihələri həyata keçirilir. Fəaliyyət göstərdiyimiz qısa müddət ərzində, insan kapitalının formalaşdırılması, əhalinin tibbi sağlamlığının mühafizəsi, sosial-məişət təminatının yaxşılaşdırılması istiqamətində müxtəlif tədbirlər həyata keçirilib, xüsusi qayğıya ehtiyacı olan və fiziki imkanları məhdud şəxslərlə genişmiqyaslı iş aparılıb və ən əsası, aidiyyəti dövlət qurumları ilə əməkdaşlıq şəraitində vətəndaşların çoxsaylı problemlərinin həllinə nail olunub”.

Müraciətin sonunda “Regional İnkişaf” İctimai Birliyi öz fəaliyyətində humanizm, insansevərlik, xalqa və dövlətə xidmət kimi dəyərlərə sadiq qalaraq, regionların sosial-iqtisadi inkişafı, Azərbaycanın tərəqqisi naminə bundan sonra da böyük əzmlə çalışacaqları bildirilib.

Konfrans işini panel iclaslarla davam etdirib.

Tədbir çərçivəsində Anar Ələkbərov və Fuad Muradovun “Regional İnkişaf” İctimai Birliyinin region nümayəndələri ilə görüşü olub. Görüşdə ölkəmizin sosial həyatında gənclərin ictimai fəallığının artırılması, onların könüllü işinə cəlb edilməsi, kütləvi tədbirlərdə iştirak, vətəndaşlarla iş, yeni layihələrin irəli sürülməsində təşəbbüskarlıq və digər istiqamətlərdə müzakirələr olub.

Sabirabad rayonuna səfər çərçivəsində RİİB nümayəndələri 2010-cu ildə Kür və Araz çaylarının daşması nəticəsində baş vermiş təbii fəlakətin fəsadlarının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, Fövqəladə Hallar Nazirliyi tərəfindən Sabirabad rayonunun Ulacalı kəndinin ərazisində salınmış yeni qəsəbədə yaşayan sakinlərlə görüşüb.

Görüşdə Anar Ələkbərov fondun gördüyü işlər, həyata keçirilən layihələr barədə məlumat verib, hər kəsi, xüsusilə, gəncləri RİİB-in fəaliyyətində yaxından iştiraka dəvət edib.

Öz növbəsində, vətəndaşlara göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlıqlarını bildirən qəsəbə sakinləri “Regional İnkişaf” İctimai Birliyinin fəaliyyətindən məmnunluqlarını ifadə edərək, şəxsi təşəbbüsləri ilə təşkilatın gələcək layihələrinə dəstək göstərəcəklərini deyiblər.

Qeyd edək ki, “Regional İnkişaf” İctimai Birliyinə rayon sakinlərindən yaşayış evlərinə dövlət reyestrindən çıxarışların verilməsi ilə bağlı daxil olmuş kollektiv müraciət əsasında Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən təbii fəlakətin fəsadlarının aradan qaldırılması məqsədilə Ulacalı kəndinin ərazisində yeni salınmış qəsəbədə və ətraf yaşayış məntəqələrində dövlət vəsaiti hesabına 436 ədəd fərdi yaşayış evindən ilkin mərhələdə 105 evə dövlət reyestrindən çıxarış hazırlanaraq təqdim edilib. Komitə tərəfindən, eyni zamanda, müraciət edən və sənədlərində hər hansı çatışmazlıq olan vətəndaşlara, bilavasitə yerində hüquqi xidmətlər göstərilmiş, onlara çatışmayan sənədlərin haradan və necə alınması barədə ətraflı izahat verilib. RİİB-in təşəbbüsü ilə, həmçinin, “Azəriqaz” İstehsalat Birliyi tərəfindən sözügedən qəsəbədə qaz təchizatı olmayan 36 evə təbii qaz xətti, “Azərişıq” Açıq Səhimdar Cəmiyyəti tərəfindən isə elektrik təchizatı olmayan 9 evə elektrik xətti çəkilib və sayğaclar quraşdırılıb.

> “Dövlət Proqramlarına dəstək olaraq, “Regional İnkişaf” İctimai Birliyi tərəfindən bölgələrdə elm, təhsil, səhiyyə, mədəniyyət, sosial, idman, ekologiya, İKT və infrastruktur layihələri həyata keçirilir. Fəaliyyət göstərdiyimiz qısa müddət ərzində, insan kapitalının formalaşdırılması, əhalinin tibbi sağlamlığının mühafizəsi, sosial-məişət təminatının yaxşılaşdırılması istiqamətində müxtəlif tədbirlər həyata keçirilib, xüsusi qayğıya ehtiyacı olan və fiziki imkanları məhdud şəxslərlə genişmiqyaslı iş aparılıb və ən əsası, aidiyyəti dövlət qurumları ilə əməkdaşlıq şəraitində vətəndaşların çoxsaylı problemlərinin həllinə nail olunub”.

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

## Bu il 100 mindən çox uşaq məktəbəhazırlıq qruplarında təhsilə cəlb edilib




Cari ildə ümumi təhsil müəssisələrində dövlət büdcəsi hesabına 5 yaşlı uşaqların məktəbəhazırlıq təhsili 2013-cü ildəki 24 faizdən 80 faizə çatdırılıb. Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, bu dövr ərzində 100 mindən çox uşaq məktəbəhazırlıq qruplarında təhsilə cəlb edilib.

## Metrodan istifadə edənlərin sayı artıb



Cari ilin yanvar-noyabr aylarında 213,9 milyon nəfər metrodan istifadə edib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, metro nəqliyyatının xidmətlərindən istifadə edən sərnişinlərin sayı ötən ilin müvafiq dövrünə nisbətən 2 faiz artıb.

## Səhiyyə Nazirliyi: Gəncədə küçədən tapılan körpənin vəziyyəti normaldır



Gəncədə vətəndaşlar 3-4 günlük oğlan uşağını küçədən taparaq 2 saylı Gəncə Şəhər Uşaq Xəstəxanasına gətiriblər. Körpənin vəziyyəti barədə Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, uşaqda fiziki qüsur qeydə alınmayıb, vəziyyəti qənaətbəxş qiymətləndirilir. Hazırda həkimlərin nəzarəti altındadır. Məlumata görə, faktla əlaqədar hüquq-mühafizə orqanlarına da artıq məlumat verilib.

## Yunanıstanda türk diplomatının avtomobili yandırılıb

Yunanıstanın Saloniki şəhərində Türkiyə baş konsulluğunun əməkdaşına məxsus avtomobil naməlum şəxslər tərəfindən yandırılıb. Hadisə yerinə yanğınsöndürənlər cəlb olunub. Yerli polis departamenti hadisə ilə bağlı istintaq aparır.

### ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya-biologiya müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Nurəliyeva Aygün Qoşqar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin FT və ÇHH ixtisası üzrə II kurs tələbəsi Xəlilov Sabir İntifaq oğlunun qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Xəlilova Aida Hizbullah qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Rəhimli Nigar Valeh qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

### BAŞSAĞLIĞI

Səbail rayonu Gigiyena və Epidemiologiya Mərkəzinin müdiriyyəti həkim və orta tibb işçiləri mərkəzin direktor müavini Niyazi Bayramovun oğlu

**Sərxanın**

vaxtsız vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin, qəbri nurla dolsun.***

# "Mobil məhkəmə" proqram təminatının geniş ictimai təqdimatı olub

***Dünən Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılmasında növbəti mühüm addım və məhkəmə istifadəçiləri üçün çox faydalı olan "Mobil məhkəmə" proqram təminatının geniş ictimai təqdimatı olub. SİA-nın xəbərinə görə, tədbirdə Ədliyyə Nazirliyinin, Prezident Administrasiyasının, Məhkəmə-Hüquq Şurasının, Vəkillər Kollegiyasının məsul şəxsləri, millət vəkilləri, hakimlər, prokurorlar, sahibkar və bank sektorunun təmsilçiləri, ictimaiyyətin, vətəndaş cəmiyyəti institutlarının və çoxsaylı KİV nümayəndələri iştirak ediblər.***








Təqdimatı açan nazirliyin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova Ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi dövlət inkişafı kursunu uğurla həyata keçirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın demokratik inkişaf yolu ilə inamla irəlilədiyi, bütün sahələrdə qazanılan nailiyyətləri qeyd edib, məhkəmə-hüquq sistemindəki islahatlardan və yeniliklərdən bəhs edib.

O bildirilib ki, dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı ədliyyə və məhkəmə sisteminin inkişafı üçün mühüm "yol xəritəsi" olaraq ötən müddətdə xeyli işlər görülüb, dövlət başçısının qanunvericilik təşəbbüsü ilə artıq bir sıra yeni, o cümlədən bu ərəfədə vahid məhkəmə təcrübəsinin formalaşdırılması, habelə məhkəmə ekspertizasının keçirilməsi ilə əlaqədar fəaliyyətin təkmilləşdirilməsi, özəl məhkəmə ekspertizası institutunun yaradılması ilə bağlı mühüm qanunlar qəbul olunub: "Dövlət başçısının tapşırıqlarına uyğun olaraq "Elektron məhkəmə" informasiya sisteminin funksionallığının artırılması üzrə əmili tədbirlər görülüb, o cümlədən məhkəməyə əlçatanlığın asanlaşdırılması məqsədilə kompütərə qoşulmadan məlumatları dərhal əldə etməyə, prosesdə mobil qaydada iştirak etməyə və s. imkan verən "Mobil məhkəmə" proqram təminatı işlənib hazırlanıb.

Ölkəmizdə rəqəmsal transformasiyanın daha bir nümunəsi olaraq, yaradılan "Mobil məhkəmə"nin dünyada tətbiqinə çox az rast gəlinir və demək olar ki, Azərbaycan bu sahədə birincilər sırasındadır".

Daha sonra tədbirdə mobil məhkəmə barədə təqdimat nümayiş etdirilib. Diqqətə çatdırılıb ki, ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması yolunda növbəti mühüm addım və məhkəmə istifadəçiləri üçün çox faydalı hədiyyə olan "Mobil məhkəmə" məhz bu gündən - 24 dekabr tarixindən istifadəyə verilir. Artıq bu tarixdən etibarən vətəndaşlar "Elektron məhkəmə" informasiya sisteminin imkanlarından mobil qaydada istifadə edəcək və faydalana biləcəklər.

Daha sonra çıxış edən "Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz söyləyib ki, Ədliyyə Nazirliyi son dövrlərdə elektron xidmətlərlə bağlı mühüm addımlar atır: "Belə bir sistemin yaradılacağını bilirdik, lakin sistemin tez bir zamanda ərsəyə gələcəyini gözləmirdik. Ötən il dövlət başçısı tərəfindən bu istiqamətdə mühüm tapşırıqlar verilmişdi. Artıq nazirlik tərəfindən görülən işlərdə tapşırıqların həlli görünür. Veb resursların mobil inteqrasiyası mühüm əhəmiyyət kəsb edir. Yeni tətbiq Məhkəmə prosesi işinin daha da sürətlənməsinə şərait yaradacaq. Hesab edirəm ki, əlçatanlıqla bağlı məqamları daha da gücləndirmək mümkündür".

Tədbirin davamında çıxış edən Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli qeyd edib ki, uzun illər müddətində məhkəmə prosesləri ilə bağlı mediadan qaçmaq kimi streotiplər var idi ki, Ədliyyə Nazirliyi tərəfindən yaradılan elektron sistemlər bu problemlərin qarşısının alınmasına xidmət edir: "Ümid edirəm ki, bu cür sistemlər digər qurumlarda da tətbiq olunacaq". Təqdimat mərasimi sual-cavab sessiyası şəklində davam edib.

***Nailə Məhərrəmova***

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**